QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



“SƏS” qəzeti mənim üçün ən aziz qəzetdir

# SƏS

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

№ 034 (5265) 23 **fevral** 2017-ci il. “Əlincə” Azərbaycan Xeyriyyə Cəmiyyətinin orqanı. **Qiyməti 40 qəpik**

# Azərbaycan Prezidentinin hədəfi - dünyada enerji təhlükəsizliyinin təminatı

*İlham Əliyev: “Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə öz vacib rolunu oynayır”*




Səh 3

## Pakistanda “Soyqırımı və etnik təmizləmə: Xocalı-25” mövzusunda seminar keçirilib

Bax 7

Azərbaycanın Pakistandakı səfirliyinin təşkilatçılığı ilə bu ölkənin Xarici İşlər Nazirliyinin İslamabad Strateji Araşdırmalar İnstitutunda “Soyqırımı və etnik təmizləmə: Xocalı-25” mövzusunda seminar keçirilib. Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunan tədbirdə Pakistan Senatının Müdafiə Komitəsinin sədri, senator Müşahid Hüseyn, İslamabad Strateji Tədqiqatlar İnstitutunun direktoru, səfir Xalid Mahmud, Pakistan Milli Assambleyasının deputatı, Pakistan-Azərbaycan parlamentlərarası ...

## Gürcüstan parlamentarisi: Xocalı faciəsinə düzgün qiymət verməliyik ki, bu cür hadisələr bir daha təkrarlanmasın

Bax 10

Gürcüstanın azərbaycanlıların yığcam yaşadıqları Qardabani rayonundan seçilən deputat, hakim “Gürcü arzusu-demokratik Gürcüstan” partiyasının üzvü Savalan Mirzəyev parlamentin fevralın 22-də keçirilmiş iclasında Xocalı soyqırımı ilə bağlı çıxış edib. S.Mirzəyev bildirib ki, düz 25 il əvvəl - 1992-ci il fevralın 26-da baş verən hadisə Qafqaz xalqlarının tarixinə qara hərflərlə yazılıb...

## 24 İL: ZƏNGİN TARİXİ YOL

Bax 8

Dünən YAP Səbail rayon təşkilatının yaranmasının 24-cü ildönümünə həsr olunan tədbir keçirilib. Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə təsis olunan YAP-ın ölkəmizin ictimai-siyasi həyatında, xalqımızın müstəqilliyin itirilməsi təhlükəsindən xilas olunmasında və respublikamızın dinamik inkişaf yoluna çıxarılmasında rolunu yüksək qiymətləndirib. Ş.Hacıyev, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf edərək, mühüm nailiyyətlər qazandığını vurğulayaraq, bu uğurlarda...

**Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələr çox yaxşı tarixə malikdir**



2

**Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üçüncü iclası keçirilib**



4

**Bakıda “Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü: itki və tələfatlar” mövzusunda beynəlxalq konfrans keçirilib**



5

**Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri “İslam Həmrəyliyi İli”ndə görüləcək işlərin detallarını açıqlayıb**



4

**Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri Xocalı faciəsi qurbanlarının xatirəsini anıblar**



6

**ABŞ-ın İndiana ştatının qubernatoru Xocalı qətliamını pisləyən bəyannamə imzalayıb**



4

9

**XOCALI FACİƏSİ...**



4

**RF XİN: Moskva Dağlıq Qarabağ münaqişəsinin səmərəli həllinin tərəfdarıdır**



16

**Qvardiola: “İstəsələr, bizə milyon qol vurarlar”**



# Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələr çox yaxşı tarixə malikdir

*Prezident İlham Əliyev Yaponiyanın dövlət nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib*



***Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə dövlət naziri Yoşifumi Matsumuranın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, Yaponiyanın dövlət naziri Yoşifumi Matsumura xanım Mehriban Əliyevanın Azərbaycan Respublikasının Birinci vitse-prezidenti vəzifəsinə təyin edilməsi münasibətilə təbriklərini çatdırdı. Prezident İlham Əliyev təbrikə görə minnətdarlığını bildirdi.***

Azərbaycan ilə Yaponiya arasında ikitərəfli əlaqələrin çox yaxşı və uzun tarixə malik olduğunu deyən dövlətimizin başçısı ölkələrimizin müxtəlif sahələrdə uğurla əməkdaşlıq etdiyini vurğuladı. Prezident İlham Əliyev siyasi sahədə əlaqələrimizin razılıq doğurduğunu dedi. Dövlətimizin başçısı Yaponiyanın maliyyə dəstəyi ilə Azərbaycanda bir çox mühüm layihələrin icra olunduğunu, Yaponiya hökumətinin kreditləri ilə ölkəmizdə çox önəmli infrastruktur layihələrinin artıq istismara verildiyini qeyd etdi. Azərbaycanın neft-qaz sektorunda da Yaponiya şirkətlərinin fəaliyyət göstərdiyini vurğulayan Prezident İlham Əliyev bu şirkətlərin gələcəkdə də ölkəmizin yeni neft-qaz sahələrində iştirak edəcəklərinə ümidvar olduğunu bildirdi. Ölkələrimiz arasında ticarət əlaqələrinin inkişaf etdirilməsi üçün gözəl imkanların olduğunu deyən dövlətimizin başçısı Yaponiyanın iqtisadiyyat, ticarət və sənaye üzrə dövlət naziri Yoşifumi Matsumuranın başçılıq etdiyi nümayəndə heyətinin Azərbaycana səfəri zamanı bütün bu mövzuların və xüsusilə ticarət dövriyyəsinin artırılması istiqamətində görüləcək işlərin müzakirə ediləcəyinə, geniş fikir mübadiləsi aparılacağına və əməkdaşlıq haqqında qərarlar qəbul ediləcəyinə əminliyini ifadə etdi.

Azərbaycana ilk dəfə səfər etdiyini vurğulayan Yoşifumi Matsumura Prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu dedi. O, ölkəmizə səfərinin Azərbaycan ilə Yaponiya arasında diplomatik münasibətlərin qurulmasının 25 illiyinin qeyd olunduğu bir vaxta təsadüf etməsinin və Azərbaycan-Yaponiya İqtisadi Komitəsinin 9-cu iclasında iştirakının onda böyük sevinc hissi yaratdığını dedi. Yoşifumi Matsumura ölkəsinin Azərbaycanla neft-qaz sahəsində əməkdaşlığın gələcəkdə də inkişaf etdirilməsində maraqlı olduğunu dedi. Görüşdə Azərbaycan ilə Yaponiya arasında əməkdaşlığın müxtəlif istiqamətlərdə, o cümlədən qeyri-neft sektoru, sənaye, kənd təsərrüfatı, səhiyyə, insan resursları, yeni yaradılmış sənaye zonalarına texnologiyaların gətirilməsi, sərmayə qoyuluşu və digər sahələrdə inkişaf etdirilməsi ilə bağlı məsələlər ətrafında fikir mübadiləsi aparıldı.

# Azərbaycan Prezidenti İlham Əliyev ABŞ-ın nümayəndə heyətini qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 22-də ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini xanım Robin Danniqanın başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

AZƏRTAC xəbər verir ki, dövlətimizin başçısı "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin görüşlərinin Bakıda təşkil olunmasının artıq yaxşı ənənə halı aldığını dedi. Bu görüşlərin praktiki müzakirələrin aparılması baxımından vacibliyini qeyd edən Prezident İlham Əliyev bunu həm də layihənin uğurlu icrasının göstəricisi kimi dəyərləndirdi. Ötən dövr ərzində bir çox işlərin görüldüyünü bildirən dövlətimizin başçısı layihənin artıq yekun mərhələyə çox yaxın olduğunu qeyd etdi. Prezident İlham Əliyev ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini Robin Danniqanın sabah Bakıda keçiriləcək "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü iclasında iştirakının əhəmiyyətini vurğulayaraq, bunun ABŞ hökumətinin layihəyə davamlı dəstəyinin yaxşı göstəricisi olduğunu dedi.

ABŞ dövlət katibinin enerji diplomatiyası üzrə köməkçisinin müavini Robin Danniqan "Cənub Qaz Dəhlizi" Məşvərət Şurası çərçivəsində nazirlərin üçüncü iclasına ev sahibliyi etdiyinə görə Prezident İlham Əliyevə minnətdarlığını bildirdi. Bu görüşün layihənin icrası ilə bağlı məsələlərin nəzərdən keçirilməsi baxımından önəmli olduğunu qeyd edən qonaq ABŞ nümayəndəsinin bu iclasda iştirakının vacibliyinə toxundu. Robin Danniqan bildirdi ki, bu, ABŞ-ın yeni hökumətinin "Cənub Qaz Dəhlizi" layihəsinə, həmçinin Avropanın enerji təhlükəsizliyi məsələsinə dəstəyini bir daha açıq şəkildə nümayiş etdirir.

Görüşdə "Cənub Qaz Dəhlizi" layihəsinin icrası ilə bağlı məsələlər müzakirə edildi, sabah Bakıda keçiriləcək "Cənub Qaz Dəhlizi" Məşvərət Şurasının növbəti iclasının əhəmiyyəti bir daha vurğulandı, ABŞ dövlətinin enerji siyasətinin bu layihəyə öz dəstəyini bundan sonra da davam etdirəcəyi əminliklə qeyd olundu.

# Azərbaycan Prezidentinin hədəfi - dünyada enerji təhlükəsizliyinin təminatı

## İlham Əliyev: "Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə öz vacib rolunu oynayır"

***Məlum olduğu kimi, fevralın 17-də keçirilən Münxen Təhlükəsizlik Konfransı çərçivəsində "Qiymətlərin sabitləşməsinə doğru? OPEC-in qayıdışı və neft geosiyasəti" mövzusunda keçirilən dəyirmi masada Azərbaycan Prezidenti İlham Əliyev çıxış edərək bildirib ki, bu gün çoxsaylı digər ölkələr, şirkətlərlə birlikdə və Avropa Komissiyasının dəstəyi ilə "Cənub Qaz Dəhlizi" layihəsini icra edirik və bu layihə 1990-cı illərdə icrasına başladığımız layihələrin davamıdır: "İndi Cənub Qaz Dəhlizi Avropada ən böyük infrastruktur layihəsidir. Onun ümumi dəyəri 40 milyard dollardan çoxdur. Hazırkı mərhələdə bu layihədə 7 ölkə iştirak edir".***




### "Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə öz vacib rolunu oynayır"

Dövlət başçısı sözügedən konfransda çıxışı zamanı bildirib ki, enerji təhlükəsizliyi ölkənin milli təhlükəsizliyindən ayırmaq olmaz: "Əlbəttə, enerji təhlükəsizliyini ölkənin milli təhlükəsizliyindən ayırmaq olmaz. Bu baxımdan, Azərbaycan region üçün enerji təhlükəsizliyini təmin etməklə, öz vacib rolunu oynayır. İndi isə irimiqyaslı qaz təchizatı layihəsinin həyata keçirilməsinə gəldikdə, ölkəmiz Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında da öz vacib rolunu oynayacaq".

Dövlət başçısı onu da bildirib ki, bu, Azərbaycanı Avropa bazarları və Avropa bazarlarına aparan marşrut boyunca yerləşən ölkələrlə birləşdirən üç fərqli boru kəmərindən ibarət inteqrasiya olunmuş boru kəməri sistemidir: "Bu layihə tamamilə yeni bir regional əməkdaşlıq formatını yaratdı. Söhbət Cənubi Qafqaz ölkələri olan Gürcüstan, Azərbaycan və Türkiyədən, sonra da Yunanıstan, Bolqarıstan və İtaliya kimi Avropa İttifaqı ölkələrindən, həmçinin, namizəd ölkə kimi Albaniyadan gedir. Beləliklə, bütün bu tərəflərin maraqlarını təmin etmək asan iş deyil. Bu səbəbdən, Avropa Komissiyası ilə birlikdə biz "Cənub Qaz Dəhlizi" layihəsinin Məşvərət Şurası adlanan formatı işə saldıq. Artıq Məşvərət Şurasının iki iclası Bakıda keçirilib və üçüncü iclas Şefçoviçin iştirakı ilə fevral ayının 23-də baş tutacaq".

### "Hədəfimiz Azərbaycanın ilk təbii qazını gələn il bazarlara çatdırmaqdır"

Dövlət başçısı dünyada ən böyük qaz yatağı olan "Şahdəniz" yatağının işlənməsi ilə bağlı bildirib ki, artıq 90 faiz tamamlanıb: "Hədəfimiz Azərbaycanın ilk təbii qazını gələn il bazarlara çatdırmaqdır və bəzi tərəfdaş ölkələrdə süni gecikmələr olmadığı təqdirdə, bu layihəni 2020-ci ilə qədər tamamlamaqdır".

Dövlət başçısı nəzərə çatdırıb ki, Azərbaycan "Cənub Qaz Dəhlizi" layihəsinin bütün dörd seqmentinin səhmdarıdır və Azərbaycan investor qismində də çıxış edir: "Biz Dünya Bankından, beynəlxalq maliyyə təşkilatlarından, Asiya İnkişaf Bankından, Asiya İnfrastruktur Bankından vəsaitləri cəlb etdik. Biz Avropa Yenidənqurma və İnkişaf Bankından, Avropa İnvestisiya Bankından maliyyə vəsaitinin ayrılmasını gözləyirik. Beləliklə, bu, ölkəmizin təşəbbüskarı olduğu, həqiqətən də geniş maliyyə, infrastruktur, texniki, enerji layihəsidir və biz bununla qürur duyuruq. Əlbəttə, bu ölkələr arasında yeni əməkdaşlıq formatı regionda tamamilə yeni bir əməkdaşlıq ruhunu yaradır. Bu, birgə bağlılıq, yəqinlik, etibarlılıq və tərəfdaşlıq yaradır. Beləliklə, layihə tamamlandıqdan sonra Avropa üçün təbii qaz təchiz edən etibarlı və yeganə yeni qaz mənbəyi qismində Azərbaycanın rolu, əlbəttə ki, artacaq və Avropa təşkilatları ilə əlaqələrimiz güclənəcək".

### Azərbaycanın enerji təhlükəsizliyi sistemi möhkəm bünövrə üzərində

Dövlətlərin inkişaf səviyyəsini, nüfuzunu, beynəlxalq etimadını və bu kimi digər xüsusiyyətlərini xarakterizə edən əsas cəhətlərdən biri onun yeritdiyi siyasətin məzmun və mahiyyətidir. Sözsüz ki, hər bir ölkə dünya birliyinin subyekti olaraq, özünün milli maraqlarına cavab verən müstəqil siyasət həyata keçirmək istəyir. Məhz bu kontekstdən məsələyə yanaşaraq, qeyd etməliyik ki, yerləşdiyi regionun lider dövləti olan Azərbaycanın həm də beynəlxalq birlikdəki yerini möhkəmləndirməsi, söz sahibinə çevrilməsi dünya miqyasında qəbul edilən reallıqdır. Bunu təsdiq edən ən başlıca amil Azərbaycanın yeritdiyi müstəqil siyasətdir. Müstəqil siyasət yeridən Prezident İlham Əliyev üçün Azərbaycanın dövləti maraqları hər şeydən üstündür. Ulu Öndər Heydər Əliyevdən başlanan bu siyasət bu gün çox uğurla və yeni formada davam etdirilməkdədir. Bütün bunların nəticəsidir ki, həyata keçirilən uğurlu islahatlar ölkəmizin daha da qüdrətlənməsinə, regionların sürətli inkişafına, yaşayış məskənlərinin abadlaşmasına, insanların həyat şəraitinin gündən-günə yaxşılaşmasına səbəb olur. Genişmiqyaslı enerji layihələrinin nəticəsi olaraq, respublikamızın, demək olar ki, bütün şəhər və kəndləri, qəsəbələri elektrik enerjisi ilə təchizatda əsaslı yeniləşmə mərhələsinə qədəm qoyub. Bütün bu işlər ölkə başçısının nəzarəti altındadır. İndi Azərbaycan dünyada təkcə neft deyil, həm də qaz ixracatçısı kimi şöhrətini artırmaqdadır. Ölkə Prezidenti İlham Əliyevin dediyi kimi: "Bu gün Azərbaycan dünyada və Avropada daha çox qaz ölkəsi kimi tanınır. Bu da müasir reallıqdır. Qaz sahəsi heç vaxt Azərbaycanda ön planda deyildi. Amma bu gün qaza daha çox böyük tələbat vardır... Azərbaycanın, qaz imkanları çox böyük səmərə ilə işə salınır".

Göründüyü kimi, sözügedən görüşlərdə Azərbaycanın bütün sahələrdə olduğu kimi, enerji sahəsində lider ölkə olduğu bir daha öz təsdiqini tapdı.

**RƏFİQƏ KAMALQIZI**

## Rəsmi xronika

Prezident İlham Əliyev Azərbaycanda Qarabağ atı cinsinin inkişafına əlavə dəstək haqqında Sərəncam imzalayıb.

Trend-in məlumata görə, Sərəncamda qeyd olunur ki, Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi istiqamətində həyata keçirilən tədbirlərin başa çatdırılması məqsədilə Qarabağ atı cinsinin damazlıq özəyinin qorunması və inkişaf etdirilməsi, bu sahədə seleksiya damazlıq işlərinin elmi əsaslarla aparılmasına şərait yaradılması istiqamətində həyata keçirilən tədbirlərin başa çatdırılması və Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq Elmi-Tədqiqat İnstitutunun tabeliyindəki "Ağdam Atçılıq Təsərrüfatı" Məhdud Məsuliyyətli Cəmiyyətinin Atçılıq kompleksinin tikintisi üçün Azərbaycan Respublikasının 2017-ci il dövlət büdcəsində nəzərdə tutulan Azərbaycan Prezidentinin ehtiyat fondundan Kənd Təsərrüfatı Nazirliyinə 2 milyon manat ayrılsın. Maliyyə Nazirliyinə bu Sərəncamda göstərilən məbləğdə maliyyələşməni təmin etmək tapşırılıb.

* * *

Prezident İlham Əliyev Bruney-Darüssalamın Sultanı Hacı Həssənal Bolkiaha təbrik məktubu göndərib. Təbrikdə deyilir: "Əlahəzrət, Bruney-Darüssalamın milli bayramı münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimi yetirməkdən məmnunluq duyuram.Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, ikitərəfli və çoxtərəfli qaydada əməkdaşlığımız bundan sonra da xalqlarımızın mənafelərinə xidmət edəcəkdir. Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı və xoşbəxtlik, dost xalqınıza daim əmin-amanlıq və firavanlıq arzulayıram".

# Azərbaycanın Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üçüncü iclası keçirilib



Fevralın 22-də Baş nazirin müavini Əli Əhmədovun iştirakı ilə Azərbaycan Respublikasının Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının üçüncü iclası keçirilib. Nazirlər Kabinetinin mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, iclası giriş sözü ilə açan Baş nazirin müavini, Dayanıqlı İnkişaf üzrə Milli Əlaqələndirmə Şurasının sədri Əli Əhmədov Prezident İlham Əliyevin müvafiq Fərmanı ilə yaradılmış Milli Əlaqələndirmə Şurasının fəaliyyətə başladığı dövrdən sonra kifayət qədər işlərin görüldüyünü və qarşıda hələ bir çox mühüm vəzifələrin dayandığını bildirib.

İclasda BMT ilə Azərbaycan hökuməti arasında sıx işbirliyinin olduğu vurğulanaraq, bu ilin iyul ayında nəzərdə tutulmuş BMT-nin Yüksək Səviyyəli Siyasi Forumuna Dayanıqlı İnkişaf Məqsədləri üzrə Azərbaycan Respublikasının ilkin hesabatının hazırlanması prosesi barədə Milli Əlaqələndirmə Şurasının sədr müavini, Azərbaycanın iqtisadiyyat naziri Şahin Mustafayevin təqdim etdiyi məlumat müzakirə edilib. Qeyd olunub ki, xüsusilə ərzaq təhlükəsizliyi, səhiyyə, sağlam həyat, gender bərabərliyi və digər məqsədlər ətrafında ciddi hazırlıq işləri aparılmalıdır. Həmçinin BMT Baş Məclisinin sədri Peter Tompsonun təşəbbüsü əsasında Təhsil Nazirliyi tərəfindən Dayanıqlı İnkişaf Məqsədlərinin müxtəlif təhsil pillələri və səviyyəsi üzrə tədris proqramlarına daxil edilməsi məsələsi də nəzərdən keçirilib. BMT-nin fəaliyyət planına uyğun olaraq Dayanıqlı İnkişaf Məqsədlərinin maarifləndirilməsi prosesi üçün müxtəlif qruplarla görüşlərin, simpoziumların, konfransların keçirilməsi barədə təşkilati tədbirlər müzakirə olunub.

İclasa yekun vuran Baş nazirin müavini Əli Əhmədov Milli Əlaqələndirmə Şurasının Yüksək Səviyyəli Siyasi Forumda Azərbaycanın Dayanıqlı İnkişaf Məqsədləri üzrə ilkin hesabatının nəzərdə tutulan vaxtda hazırlanması üçün müvafiq dövlət qurumlarına tapşırıqlar verib. İclasda cari məsələlər ətrafında geniş fikir mübadiləsi aparılıb.

# ABŞ-ın İndiana ştatının qubernatoru Xocalı qətliamını pisləyən bəyannamə imzalayıb

***ABŞ-ın İndiana ştatının qubernatoru Erik Holkomb xüsusi bəyannamə imzalayaraq, 26 fevral tarixini İndianada "Xocalını Anma Günü" elan edib. AZƏRTAC xəbər verir ki, Azərbaycanın Los-Ancelesdəki baş konsulluğuna daxil olmuş bəyanatda Xocalı qətliamı dəhşətli faciə kimi pislənilir. Bu, İndiana qubernatoru tərəfindən indiyədək Xocalı faciəsinə dair imzalanan ilk bəyannamədir.***



Sənəddə Xocalı qətliamı zamanı 600-dən çox mülki vətəndaşın, o cümlədən çoxlu sayda uşaq, qadın və qocaların kütləvi şəkildə öldürüldüyü bildirilir. "Human Rights Watch" təşkilatının bu qətliamı regionda baş vermiş ən böyük kütləvi qırğın adlandırdığı vurğulanaraq qeyd olunur ki, bu dəhşətli hadisə dünya xalqları arasında qarşılıqlı anlaşma, xoş münasibət və tolerantlığın nə qədər zəruri olduğunu göstərir. Həmçinin qubernator Azərbaycanın müstəqilliyinin, suverenliyinin və ərazi bütövlüyünün ABŞ və BMT də daxil olmaqla bütün beynəlxalq ictimaiyyət tərəfindən tanındığını bildirir.

Bəyanatın sonunda qubernator E.Holkomb İndianada və dünyanın müxtəlif ölkələrində yaşayan azərbaycanlıların hər il 26 fevral tarixində Xocalı qətliamının qurbanlarını andıqlarını bildirərək, bu tarixi İndianada "Xocalını Anma Günü" elan etdiyini açıqlayır və bütün İndiana sakinlərini bu günü anmağa çağırır. Qeyd edək ki, ABŞ-ın hazırkı vitse-prezidenti Mayk Pence indiki vəzifəyə seçilməzdən əvvəl, 2013-2016-cı illərdə İndiana ştatının qubernatoru vəzifəsində çalışıb.

# Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri "İslam Həmrəyliyi İli"ndə görüləcək işlərin detallarını açıqlayıb



2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan edilməsi ilə əlaqədar Tədbirlər Planına uyğun olaraq həm ölkə daxilində, həm də xaricdə bir çox yüksək səviyyəli konfransların, sərgilərin, görüşlərin və digər tədbirlərin keçirilməsi nəzərdə tutulur. Ümumilikdə İslam dəyərlərinin, mədəniyyətinin, İslam həmrəyliyinin Azərbaycan nümunəsinin təbliği və təşviqi ilə bağlı materialların yayılması, ölkəmizin işğal olunmuş ərazilərində erməni vandalizminə məruz qalan İslam mədəniyyəti abidələri ilə bağlı məlumatların dünya ictimaiyyətinə çatdırılması qarşımızda duran ən vacib məsələlərdəndir.

Bu barədə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı məlumat verib.

Mübariz Qurbanlı deyib ki, bu tədbirlərin keçirilməsində əsas məqsəd müxtəlif konfessiyalar, mədəniyyətlər, sivilizasiyalar və məzhəblər arasında həmrəyliyə nail olmaq, eləcə də Azərbaycanı bu istiqamətdə dünyaya nümunə kimi göstərməkdir. Bizim bu sahədə qarşımızda duran ən vacib məqsəd Azərbaycandakı din və məzhəb ardıcılları arasında tolerant, birgəyaşayış nümunəsinin xaricdə, eləcə də İslam dünyasında təbliği və təşviqidir. Bu istiqamətdə müəyyən tədbirlərin keçirilməsi nəzərdə tutulur.

Komitə sədri qeyd edib ki, İslam dünyasının bir parçası olaraq Azərbaycanın İslama aid tarixi abidələrinin, məscidlərinin nümunə kimi dünyaya nümayiş etdirilməsi də nəzərdə tutulub. Bununla bağlı il ərzində müxtəlif xarakterli sərgilər keçiriləcək. Bu tədbirlərin həyata keçirilməsində müxtəlif nazirlik və komitələr birgə fəaliyyət göstərəcəklər.

Mübariz Qurbanlı vurğulayıb ki, Prezident İlham Əliyev tərəfindən 2017-ci ilin Azərbaycanda "İslam Həmrəyliyi İli" elan olunması çox əhəmiyyətli və zamanın çağırışlarına cavab verən mühüm addımdır. Bu, müasir dövrdə müstəqil siyasət aparmaq kimi çox çətin bir işin öhdəsindən öz zəngin və uzaqgörən siyasəti ilə gələn dövlət başçımızın İslam dininə, müsəlman dünyasına nə qədər böyük önəm verdiyinin bariz nümunəsidir.

Prezident İlham Əliyev 2016-cı ili "Multikulturalizm İli", onun məntiqi davamı kimi bu ili "İslam Həmrəyliyi İli" elan etməklə bütün dünyanın diqqətini həmrəy olmağa, multikultural dəyərlərə sahib çıxmağa, dinlər və məzhəblər arasında dialoq qurmağa yönəldir. Dini dözümsüzlüyün, irqi ayrı-seçkiliyin bütün dünyada geniş yayıldığı bir dövrdə Prezidentimizin birbaşa göstərişi ilə elan edilmiş "İslam Həmrəyliyi İli" yalnız din amilini deyil, eyni zamanda, müsəlman ölkələrinin istər siyasi-iqtisadi, istərsə də mədəni sahədə bir-birinə dəstək olması, həmrəy olması məsələsini özündə əks etdirir və onlar arasında nifaq salmaq istəyənlərə bir cavabdır. Həmçinin bu il çox önəmli beynəlxalq tədbir olan IV İslam Həmrəyliyi Oyunları ölkəmizdə keçiriləcək ki, bu da müstəqil Azərbaycanın müsəlman dünyasındakı nüfuzundan xəbər verir. Prezident İlham Əliyevin 2017-ci ilin "İslam Həmrəyliyi İli" elan edilməsi ilə bağlı imzaladığı Sərəncam bütövlükdə İslam dünyasında əks-səda doğurmaqla yanaşı, İslam həmrəyliyinə böyük töhfə olacaq.

Komitə sədri qeyd edib ki, ümummilli lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan dövlət-din münasibətləri modeli sayəsində milli-mənəvi dəyərlərə qayıdışın əsası qoyulub, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərilir, ölkədə dini etiqad, inanc azadlığı tam təmin edilir. Ölkəmizdə digər sahələrdə olduğu kimi, din sahəsində də böyük uğurlar əldə edilib, kənardan dini zəmində münaqişələr, məzhəblərarası konfliktlər yaratmağa çalışanların qarşısı vaxtında alınıb. Vətəndaşların vicdan azadlığı Konstitusiyamızda əsas insan hüquq və azadlıqlarından biri kimi təsbit olunub, eyni zamanda, "Dini etiqad azadlığı haqqında" Qanunda geniş şəkildə öz əksini tapıb. Təsadüfi deyil ki, Azərbaycanın bu nümunəvi dövlət-din münasibətləri modeli digər dövlətlər tərəfindən də öyrənilir və tədqiq olunur.

Heydər Əliyev Fondunun da bu dəyərlərimizin qorunması istiqamətindəki fəaliyyəti xüsusi vurğulanmalıdır. Fondun "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində Mərdəkan qəsəbəsindəki XVI əsrə aid "Pir Həsən" ziyarətgahında, Binə qəsəbəsindəki "Möhsün Səlim" və "İmam Rza", Gəncədəki "Həzrəti Zeynəb", Buzovna qəsəbəsindəki "Cümə" və s. məscidlərdə əsaslı təmir və bərpa işləri aparılıb, o cümlədən yeni məscidlər istifadəyə verilib. Mübariz Qurbanlı milli-mənəvi dəyərlərimizin qorunmasında və təbliğində Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın böyük xidmətlərinin olduğunu vurğulayıb.

## RF XİN: Moskva Dağlıq Qarabağ münaqişəsinin səmərəli həllinin tərəfdarıdır

Rusiya Dağlıq Qarabağ münaqişəsində bütün tərəflərin qəbul edə biləcəyi həll yolunun axtarışlarını davam etdirəcək. Trend-in məlumatına görə, bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov Moskvada ermənistanlı həmkarı Edvard Nalbandyanla birgə brifinq zamanı deyib. S.Lavrov E.Nalbandyanla görüşü zamanı Qafqaz regionunda və Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı mövcud vəziyyəti müzakirə edib.



# Bakıda “Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü: itki və tələfatlar” mövzusunda beynəlxalq konfrans keçirilib




## *Fevralın 22-də Bakıda Xocalı soyqırımının 25-ci ildönümü ilə əlaqədar “Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü: itki və tələfatlar” mövzusunda beynəlxalq konfrans keçirilib*

AZƏRTAC xəbər verir ki, konfrans iştirakçıları əvvəlcə Fəxri xiyabanda müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, ümummilli lider Heydər Əliyevin məzarını ziyarət edərək önünə əklil qoyublar. Tədbiri giriş sözü ilə açan Milli Məclisin deputatı, Avrasiya Qiymətləndiricilər Birlikləri Assosiasiyasının İdarə Heyətinin sədri Xanhüseyn Kazımlı Azərbaycan Respublikası Ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun Prezident İlham Əliyevin göstərişi və tövsiyələri ilə 1988-1994-cü illərdə silahlı erməni təcavüzü nəticəsində Azərbaycanın məruz qaldığı hər cür əmlakın, o cümlədən yeraltı, yerüstü sərvətlərin itkisinin dəyərinin hesablanmasına, onların qiymətləndirilməsinə və bu sahədə elektron məlumat bazasının hazırlanmasına nail olduğunu deyib.

“Həmin illərdə işğal olunmuş torpaqlarda amansızlıqla, hətta müharibə qanunlarına da sığmayan qeyri-insani hərəkətlər bizə məlumdur. Beynəlxalq təşkilatların tövsiyələri nəzərə alınaraq işğal altında qalan hər cür varidatımızın, daşınar və daşınmaz əmlakın, yeraltı və yerüstü təbii sərvətlərin, tarixi abidələrin dəyəri birlikdə hesablanıb. Ermənistanın işğal etdiyi bütün ərazilərdəki maddi və qeyri-maddi sərvətlərin özününküləşdirilməsi niyyəti ilə yanaşması da beynəlxalq aləmə məlumdur”, - deyə X.Kazımlı əlavə edib.

İşçi Qrupunun rəhbəri 1988-1994-cü illərdə silahlı erməni təcavüzü nəticəsində ölkəmizin məruz qaldığı itki və tələfatlara görə işğalçı tərəfdən təzminat tələb etməyin vacibliyini bir daha diqqətə çatdırıb. O, Prezident İlham Əliyevin “İşğaldan azad edilmiş Cəbrayıl rayonunun Cocuq Mərcanlı kəndinin bərpası ilə bağlı tədbirlər haqqında” Sərəncamı ilə Böyük Qayıdışın əsasının qoyulmasının fərəh hissi doğurduğunu vurğulayıb.

Sonra Azərbaycan Respublikası Ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupunun üzvü, “MBA” qiymətləndiricilər şirkətinin direktoru Nüsrət İbrahimov “Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü nəticəsində itki və tələfatların mövcud dəyər reallıqları” mövzusunda çıxış edib. Bildirib ki, işğal olunmuş ərazilərdə erməni təcavüzkarları tərəfindən aparılan etnik təmizləmə siyasəti nəticəsində ümumi sahəsi 9,1 milyon kvadratmetr olan 150 minə yaxın yaşayış evi və mənzil dağıdılıb, soyğunçuluğa məruz qalıb. İşğal olunmuş zonalarda 6 minədək sənaye, kənd təsərrüfatı və digər müəssisələr tam şəkildə sıradan çıxarılıb və dağıdılıb. Bir milyon hektardan artıq kənd təsərrüfatına yararlı torpaq sahəsi, o cümlədən 127700 hektar suvarılan torpaq, 34600 hektar üzüm və meyvə bağları sahəsi, işğal edilən ərazilərdən kənarda yerləşən 5 rayonda 120 min hektar əkinə yararlı torpaq sahəsi suvarılmamış qalıb və praktiki olaraq təsərrüfat dövriyyəsindən çıxarılıb.

Qeyd edilib ki, Azərbaycan Respublikası ərazilərinin Ermənistan silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsində Dövlət Statistika Komitəsinin məlumatlarından, mərkəzi və yerli icra hakimiyyəti orqanları tərəfindən təqdim olunan sənədlərdən, arxiv-informasiya fondlarının materiallarından, müxtəlif dillərdə bu sahə üzrə dərc olunan ədəbiyyatlardan, İşçi Qrupunun araşdırmaları və təhlillərinin nəticələrindən istifadə edilib. Ermənistanın Azərbaycana silahlı təcavüzü nəticəsində itki və tələfatların ümumi dəyəri 819,15 milyard ABŞ dolları. Lakin bu rəqəm son deyil, hazırda işlər davam edir.

Konfransda Azərbaycan Respublikası Prezidenti Administrasiyası rəhbərinin müavini, xarici əlaqələr şöbəsinin müdiri Novruz Məmmədov “Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi zəminində Azərbaycan xalqının sosial-iqtisadi qayğıları və onun təmin edilməsi problemləri” mövzusunda çıxış edib. Novruz Məmmədov bildirib ki, bu konfrans Azərbaycan xalqının başına gətirilən müsibətlər barədə məlumatların beynəlxalq ictimaiyyətə çatdırılması baxımından mühüm əhəmiyyət daşıyır. Ermənistan silahlı qüvvələrinin Azərbaycan ərazisinin 20 faizini işğal etməsi, bir milyondan çox azərbaycanlının qaçqın və məcburi köçkünə çevrilməsi nəticəsində təkcə Azərbaycana deyil, bütün regiona böyük ziyan dəyib. Ümumiyyətlə, Ermənistandan 250 min azərbaycanlının necə qovulması, onların hansı əzab-əziyyətlərdən keçdiyini yaxşı bilirik. Bu, bizim tariximizdir. Eyni zamanda, Dağlıq Qarabağdakı azərbaycanlılar haqqında da bu fikri demək olar. Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi erməni dairələrinin ərazi iddialarının son mərhələsi olub. Ermənilər hətta Xocalıda soyqırımı törətməkdən belə çəkinməyiblər. Bu əməllər XX əsrin ruhuna zidd olsa da, biz bunları yaşamışıq. Qadın, uşaq, qoca daxil olmaqla yüzlərlə dinc insan qətlə yetirilib. Bütün bunlara XX əsrin sonunda rəvac verilib.

Prezident Administrasiyası rəhbərinin müavini qeyd edib ki, bu münaqişə Azərbaycana, bütövlükdə regiona çox böyük ziyan vurub. Bizim əsas məqsədimiz bunları beynəlxalq aləmə çatdırmaqdır.

Novruz Məmmədov bildirib ki, əgər Azərbaycan torpaqları işğal edilməsəydi, oradakı 100 minlərlə hektar torpaq sahələrindən daha əlverişli istifadə olunardı və Azərbaycan iqtisadiyyatı daha da inkişaf edərdi. Məsələn, o ərazilərdə kənd təsərrüfatı məhsullarının istehsalı üçün çox münbit torpaqlar var. Həmin ərazilərin işğal altında olması nəticəsində kənd təsərrüfatının bütün sahələrinə çox böyük ziyan dəyir. Eyni zamanda, işğal olunmuş torpaqlarda soyğunçuluğun, talanın nəticəsində bu ərazilərdə Azərbaycana aid heç bir məscid, xəstəxana, qəbiristanlıq qalmayıb.

“Bu gün beynəlxalq miqyasda keçirilən bütün forumlarda, konfranslarda danışıqlar budur ki, gəlin, insanların qayğısını çəkək, insan hüquqlarını qoruyaq. Əgər belədirsə, həmin tədbirlərdə niyə bir milyon azərbaycanlının fundamental hüquqlarının pozulması barədə danışılmır? Belə olan halda biz onların səmimiyyətinə necə inanaq? Azərbaycanın ərazi bütövlüyü pozulub. Bunu bütün beynəlxalq təşkilatlar, dövlətlər ayrı-ayrılıqda qəbul edirlər. Lakin konkret qərarın qəbul edilməsi üçün heç bir addım atılmır. Ermənistan kimi kiçik bir ölkənin işğalçı siyasətə görə sanksiyalara məruz qalması məgər təbii hal olmazdımı?! Amma təəssüf ki, Qərb bu barədə düşünmür”, - deyə Prezident Administrasiyası rəhbərinin müavini bildirib. Novruz Məmmədov bu gün müstəqil siyasət həyata keçirən Azərbaycanın sivilizasiyalararası, mədəniyyətlərarası dialoqun inkişafına, Avropanın enerji təhlükəsizliyinin təmininə mühüm töhfələr verdiyini vurğulayıb.

Gürcüstanlı professor Quram Marxulia çıxışında əminliklə bildirib ki, Ermənistanın törətdiyi cinayətlərin səbəbi məhz onun cəzasızlığıdır. Ermənistan işğal etdiyi ərazilərdə bütün abidələri məhv edib ki, həmin torpaqlarda Azərbaycanın izi də qalmasın. Bu, faciədir. Əvvəllər biz bunun baş verdiyini təsəvvür də edə bilməzdik. İşğal edilən ərazilərdə bunu törədənlər barbarlardır. Dünya ictimaiyyəti bundan xəbərdar olmalıdır. Cəzasızlıq onların bu vəhşilikləri törətməsinə gətirib çıxardı.

Ardı Səh. 6

# Bakıda “Azərbaycan ərazilərinə silahlı erməni təcavüzü: itki və tələfatlar” mövzusunda beynəlxalq konfrans keçirilib



Əvvəli-Səh-5

Azərbaycan Xarici İşlər Nazirliyinin nümayəndəsi Fəxrəddin Qurbanov dünya birliyinin hələ də beynəlxalq fundamental hüquq və prinsiplərin pozulması halları ilə üzləşdiyini bildirib. Torpaqlarımızın işğalından danışan F.Qurbanov deyib ki, 25 ildən artıq bir dövrdə münaqişədən əziyyət çəkən Azərbaycan üçün beynəlxalq ictimaiyyətin onun ərazi bütövlüyünə və suverenliyinə birmənalı və davamlı dəstəyi ciddi amildir. Münaqişənin həlli ilə bağlı Azərbaycan beynəlxalq və ikitərəfli formatda işlər görür. Ermənistanın təcavüzkar siyasətini pisləyən və münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həllinə çağıran bir sıra qərar və qətnamələr qəbul edilib.

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru Ədalət Muradov, Beynəlxalq münasibətlər sahəsində tanınmış israilli ekspert, İsraildə fəaliyyət göstərən “Cəmiyyət üçün beynəlxalq layihələr” adlı beynəlxalq qeyri-hökumət təşkilatının rəhbəri Arye Qut, Milli Məclisin deputatı Fəttah Heydərov, Beynəlxalq Avrasiya Mətbuat Fondunun rəhbəri Umud Mirzəyev erməni silahlı təcavüzünün ölkəmizə və bəşəriyyətə mənfi təsirlərindən, cinayətkarların cəzalandırılmasının vacibliyindən danışıblar. Xocalı soyqırımı ilə bağlı həqiqətlərin beynəlxalq aləmdə geniş yayılması, eləcə də qətliama obyektiv siyasi-hüquqi qiymət verilməsi ilə bağlı Heydər Əliyev Fondu tərəfindən görülən işlərdən bəhs olunub. İşçi Qrupu tərəfindən görülən işlər təqdirəlayiq hesab edilib və bu istiqamətdə səylərin davam etdirilməsinin vacibliyi vurğulanıb.

Konfransda iştirak edən Milli Qəhrəman Çingiz Qurbanovun atası Salman Qurbanov Azərbaycanın heç vaxt torpaqlarımızın işğalı ilə barışmayacağını, ərazilərimizin düşmən tapdağından xilas ediləcəyi günün uzaqda olmadığını söyləyib. Dövlət Statistika Komitəsi sədrinin müavini Rauf Səlimov bildirib ki, torpaqlarımızın Ermənistan silahlı qüvvələri tərəfindən işğalı nəticəsində çox böyük itki və tələfatlarla üzləşmiş Azərbaycanda bu itkilərin qiymətləndirilməsi mühüm tarixi əhəmiyyət kəsb edir. Düzdür, Vətən uğrunda şəhid olmuş qəhrəman övladlarımızın həyatlarının dəyərini hansısa kəmiyyət ölçü vahidi ilə qiymətləndirmək mümkün deyil, amma əhaliyə, dövlətə, ətraf mühit və təbii sərvətlərə dəymiş zərəri, işğalla bağlı izafi hərbi xərcləri və itkiləri hesablamaq çətin də olsa mümkündür. Azərbaycan Respublikası Ərazilərinin Ermənistanın silahlı qüvvələrinin işğalı nəticəsində itki və tələfatların qiymətləndirilməsi üzrə İşçi Qrupu bu çətin vəzifənin öhdəsindən gəlib.

Moldovanın insan hüquqları üzrə keçmiş müvəkkili, Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin Moldova, Ukrayna, Belarus, Rumıniya və Polşadakı nümayəndəliyinin rəhbəri Aureliya Qriqoriu Ermənistanın Azərbaycana qarşı təcavüzünün kütləvi insan hüquqlarının pozulması ilə müşayiət olunduğunu deyib. Bildirilib ki, işğal edilmiş ərazilərdə şəhərlər, qəsəbələr, kəndlər, avtomobil yolları dağıdılıb. Ermənistan həm öz ərazisində, həm də Azərbaycanda işğal etdiyi torpaqlarda etnik təmizləmə siyasəti aparıb. Bu ölkənin işğalçılıq siyasəti soyqırımı aktı ilə müşayiət olunur. Belə soyqırımlarından biri də Xocalı soyqırımıdır. Bu soyqırımını dünyanın bir sıra ölkələrinin parlamentləri də tanıyıb. Bu yaxınlarda diplomatların Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinə səfərin təşkili önəmli addım idi. Hamı Ermənistanın təcavüzkar olduğunu bilməlidir.

# Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin üzvləri Xocalı faciəsi qurbanlarının xatirəsini anıblar







Fevralın 22-də Yeni Azərbaycan Partiyası Gənclər Birliyinin (YAP GB) təşkilatçılığı ilə Zirə Mədəniyyət Mərkəzində Xocalı faciəsi qurbanlarının xatirəsinin anım tədbiri keçirilib. AZƏRTAC xəbər verir ki, Milli Məclisin deputatlarının, partiyanın üzvü olan fəal gənclərin, incəsənət və ictimaiyyət nümayəndələrinin qatıldıqları tədbirdə əvvəlcə Azərbaycanın dövlət himni səsləndirilib, faciə qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

YAP GB-nin sədri Seymur Orucov çıxış edərək Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Xocalı soyqırımı, XX əsrin əvvəllərindən başlayaraq, ermənilər tərəfindən xalqımıza qarşı aparılan etnik təmizləmə siyasəti, azərbaycanlıların erməni silahlı dəstələri tərəfindən qətliamlara məruz qalması, şəhərlərimizin, kəndlərimizin, dini, tarixi və mədəni abidələrimizin dağıdılması və yandırılması, bu təcavüzün hələ də davam etməsi barədə məlumat verib. O, erməni silahlı dəstələri tərəfindən xalqımıza qarşı törədilmiş, dünyada misli görünməmiş vəhşilik və qəddarlığın Xatın, Xirosima, Holokost və digər faciələrlə bir sırada dayandığını vurğulayıb. Sonra faciə ilə bağlı film nümayiş etdirilib. Digər çıxış edənlər də Xocalı faciəsini bəşəriyyətə qarşı törədilmiş ən böyük cinayət adlandırıblar. Natiqlər insanlığa qarşı cinayət törədənlərin cəzasız qalmayacaqlarına əminliklərini bildiriblər.

# Pakistanda "Soyqırımı və etnik təmizləmə: Xocalı-25" mövzusunda seminar keçirilib









***Azərbaycanın Pakistandakı səfirliyinin təşkilatçılığı ilə bu ölkənin Xarici İşlər Nazirliyinin İslamabad Strateji Araşdırmalar İnstitutunda "Soyqırımı və etnik təmizləmə: Xocalı-25" mövzusunda seminar keçirilib.***

Xocalı soyqırımının 25-ci ildönümünə həsr olunan tədbirdə Pakistan Senatının Müdafiə Komitəsinin sədri, senator Müşahid Hüseyn, İslamabad Strateji Tədqiqatlar İnstitutunun direktoru, səfir Xalid Mahmud, Pakistan Milli Assambleyasının deputatı, Pakistan-Azərbaycan parlamentlərarası dostluq qrupunun məsul nümayəndəsi Şaza Fatimə Xavaca, Milli Müdafiə Universitetinin beynəlxalq əlaqələr idarəsinin sabiq direktoru, ekspert Məhəmməd Xan, yüksək rütbəli diplomatlar, tədqiqatçılar, ictimaiyyət nümayəndələri və jurnalistlər iştirak ediblər.

Səfir Xalid Mahmud Ermənistanın Xocalıda törətdiyi soyqırımının Azərbaycanın müasir tarixinin faciəli və qanlı səhifələrindən biri olduğunu bildirib. Direktor 1993-cü ildə BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycanın işğal olunmuş torpaqlarından dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən dörd qətnamənin qəbulunda Pakistanın aparıcı rol oynadığını, ölkəsinin sonrakı dövrlərdə də Azərbaycanı tam dəstəklədiyini diqqətə çatdırıb.

Azərbaycanın Pakistandakı səfiri Əli Əlizadə erməni şovinistlərinin son 200 ildə azərbaycanlılara və ümumilikdə türklərə qarşı etnik təmizləmə, işğalçılıq siyasəti həyata keçirdiklərini, təkcə XX əsrdə azərbaycanlıların öz doğma yurdlarından didərgin salındıqlarını, ermənilərin tək Azərbaycanda deyil, böyük Ermənistan dövlətinin yaradılması xülyaları ilə Türkiyə, İran və bir sıra digər ölkələrdə qətliamlar törətdiklərini vurğulayıb. Bununla kifayətlənməyən işğalçı ölkənin 1988-ci ildə yenidən Azərbaycana qarşı ərazi iddiaları qaldırdığını, 20 faiz torpaqlarımızı işğal etdiyini, 1992-ci ildə Xocalıda azərbaycanlıların soyqırımını törətməklə bəşəriyyətə qarşı cinayətə imza atdığını bildirib.

Səfir Xocalıda soyqırımı törədən ermənilərin məqsədlərinin strateji əraziləri ələ keçirməklə yanaşı, qədim Azərbaycan tarixini əks etdirən müsəlman abidələrinin, sənət əsərlərinin məhv edilməsi olduğunu və bu cür vəhşilikləri törədənlərin cəzalandırılacağını vurğulayıb. O, Xocalı soyqırımını tanıyan ilk ölkə kimi qardaş Pakistana və onun xalqına minnətdarlığını ifadə edib, bu soyqırımını tanıyan dövlətlərin sayının hər il artdığını bildirib.

Şaza Fatimə Xavaca Azərbaycan-Pakistan əlaqələrinin səmimi dostluğa və əməkdaşlığa əsaslandığını, ölkələrimizin bütün məsələlərdə bir-birini dəstəklədiyini, Pakistanın Ermənistanın hüquqazidd işğalına qarşı çıxdığını, bu ölkəni bir dövlət olaraq tanımadığını qeyd edib.

O, "BBC", "Nyu York Tayms" və digər mənbələrdən sitatlar gətirərək bildirib ki, Xocalıda baş verənlər dəhşət doğurur. Belə ki, hətta azərbaycanlı hamilə qadın və uşaqlar da yaxın məsafədən xüsusi qəddarlıqla qətlə yetirilib. O deyib ki, Azərbaycan xalqı və dövləti çox yetkin mövqe nümayiş etdirərək bir tərəfdən hadisəni unutmur, digər tərəfdən də dünyadan Xocalıya ədalət tələb edir.

Məhəmməd Xan vurğulayıb ki, Ermənistan ordusunun və keçmiş SSRİ-nin 366-cı alayının Xocalını hədəf seçməkdə məqsədlərindən biri də şəhərin strateji mövqeyi, tarixi-mədəni və sosial əhəmiyyəti olub. Xocalının məhvi, əhaliyə qarşı soyqırımının törədilməsi təsadüfi deyil, əvvəlcədən planlaşdırılan işğalçılıq siyasəti olub.

Müşahid Hüseyn Azərbaycan-Pakistan münasibətlərinin ortaq dəyərlərə, eyni zamanda, birgə maraqlara və qarşılıqlı əməkdaşlığa əsaslandığını deyib, Pakistanın Dağlıq Qarabağ məsələsində Azərbaycanın haqlı mövqeyini tam dəstəklədiyini ifadə edib. M. Hüseyn bildirib ki, beynəlxalq aləmin bu kimi məsələlərə ikili standartlardan yanaşdığına görə, Xocalı soyqırımına tam ədalətli qiymət verilməyib. O, həmçinin Azərbaycana səfərləri zamanı ölkəmizin inkişafının şahidi olduğunu və bundan qürur duyduğunu deyib.

Natiq Azərbaycanın 1918-ci ildə İslam dünyasında ilk parlament təsis etdiyini, ölkəmizin mühüm dövlətçilik ənənələrinə malik olduğunu qeyd edib, Azərbaycanı ilk tanıyan ölkələrdən birinin Pakistan olduğunu diqqətə çatdırıb. Kəşmir məsələsində Azərbaycanın da Pakistana dəstəyinin yüksək qiymətləndirildiyini vurğulayıb. O, Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın təşəbbüsü və dəstəyi ilə Pakistanda bir çox humanitar layihələrin icra edildiyi barədə də məlumat verib, bu layihələrin həyata keçirilməsinin dostluq və qardaşlıq əlaqələrinin təzahürü olduğunu ifadə edib. Seminarda, həmçinin Xocalı soyqırımına dair sənədli film nümayiş etdirilib, seminarın keçirildiyi salonun foyesində qətliamı əks etdirən fotostend, eləcə də Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi, Azərbaycan həqiqətlərinə dair müxtəlif məzmunlu kitablar, bukletlər və digər əyani materiallardan ibarət sərgi təşkil olunub.

***Qulu Kəngərli***
***AZƏRTAC-ın xüsusi müxbiri, İslamabad***



## ƏLİ KƏRİMLİ - CANLI SƏHV

RÖVŞƏN
rovsen.rasulov@mail.ru

***Azərbaycan iqtidarının sosial-iqtisadi islahatlar və kadr dəyişikliyi fonunda atdığı mühüm addımlarının hər biri, bu ölkənin əleyhinə işləyən daxili düşmənlərin başına sanki qaynar su tökür. Çox yəqin ki, normal düşüncəyə malik olan insanlar dəfələrlə bu amilin şahidi olublar. Belə qaynar sular, xüsusilə, AXCP, Müsavat və bu kimi digər dırnaqarası dağıdıcı müxalifət partiyalarının saxta liderlərinin başına tökülür, töküldükcə də yandırır. Hər halda, yandırmasaydı, bu qədər yekəbaşlıqlara, təkəbbürlərə, özündən müştəbeh çıxışlara yol verib, necə deyərlər, ağızlarına eşşək çulu yerləşdirməzdilər.***

Məsələ də ondadır ki, xalqın, millətin, dövlətin yalnız inkişafını və rifah halının yaxşılaşmasını istəyən dövlət rəhbərliyimizin bu yöndə gəldiyi qənaətlər, verilən qərarlar Ə.Kərimli, İ.Qəmbər və s. xarici əllərdə oynadılan ipli kuklaların qıcıqlanmalarına səbəb olur. Niyə? Hansı səbəbdən? Həm də nə üzlə?! Adama deyərlər ki, sən bu dövlət və xalq üçün nə etmisən ki, indi də özünü "söz sahibi" kimi təqdim edib, üstəlik, fikir də bildirirsən? Təbii ki, bunu adama deyərlər, Ə.Kərimliyə, İ.Qəmbərə və bu tipdə "yaşayan" siyasi ölülərə yox. Çünki bu siyasi ölülərin işləri-gücləri satılmaqdan və xəyanətlə məşğul olmaqdan ibarət olub. Xalq da bunların hakimiyyətdə olduqları dövrü görüb, hər halda...

İstər hakimiyyətləri dövründə, istərsə də özlərini "müxalifət lideri" elan etdikdən sonra bunlar haqqında "N" qədər kompromatlar toplanıb, sübutlar, faktlar, dəlillər isbat edilərək, simasız "simalarına" çırpılıb. İndi də durublar iqtidarın verdiyi qərarlarda "səhv" axtarmağa. Halbuki elə bunların özləri başdan-ayağa qədər səhv məxluqlardırlar. Köhnə adamlar demişkən, bəlkə də bu dünyaya səhv olaraq gəliblər...

Baxın, ölkədə birinci vitse-prezidentlik postu yaradılıb, onlar isə siyasi həyasızlıq edirlər. Halbuki dünənə qədər Nazirlər Kabinetinin mövcudluğunu "qəbuledilməz" adlandıranlar da bunlar idi. İndi dağıdıcı müxalifət liderlərinin ətrafında olanlar belə başa düşmürlər. AXCP sədri Ə.Kərimli dərhal düşüb ortaya və yuxarıda da yazdığım kimi, basıb ağzına eşşək çulunu. Ölkədə demokratik siyasi sistemdə islahatlar aparılır, bu siyasi gədə isə həmin əhəmiyyətli qərarı "ciddi səhv" adlandırır.

Birini qoyum, o birini deyim. Məhz xalq sizlərə inananda, bəlkə də ciddi səhv etmişdi. Çox şükür ki, bu səhvini bir ilin içində düzəltdi və sizləri tulladı siyasi zibilliyə. Siyasi zibillikdə tullantı qismində qalanlardan isə, daha adam-zad çıxmaz. Hətta ondan imtina edən (!) qohumları belə, iddia edirlər ki, Ə.Kərimlinin onların içinə düşməsi çox böyük səhviymiş. İndi hansı cür, necə, bunu Allah bilir və biz bəndələrin əlində olan şey deyil. Bu zaman AXCP sədrinin dərhal feysbuka çıxıb, artistlik etməsinə də ehtiyac yox idi. Axı sənin kimi canlı səhvin dedikləri səndən və sənin kimi digər həyat səhvlərindən başqa kimə lazımdır?

# 24 İL: ZƏNGİN TARİXİ YOL

## YAP Səbail rayon təşkilatının yaranmasının 24-cü ildönümünə həsr olunan tədbir keçirilib





***Dünən YAP Səbail rayon təşkilatının yaranmasının 24-cü ildönümünə həsr olunan tədbir keçirilib. Tədbirdə YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı Şəmsəddin Hacıyev çıxış edərək, Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə təsis olunan YAP-ın ölkəmizin ictimai-siyasi həyatında, xalqımızın müstəqilliyin itirilməsi təhlükəsindən xilas olunmasında və respublikamızın dinamik inkişaf yoluna çıxarılmasında rolunu yüksək qiymətləndirib.***

Ş.Hacıyev, Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın sürətlə inkişaf edərək, mühüm nailiyyətlər qazandığını vurğulayaraq, bu uğurlarda üzvlərinin sayının 700 minə çatan YAP-ın mühüm rol oynadığını söyləyib: "Bu gün YAP böyük ictimai-siyasi qüvvə olmaqla yanaşı, regionun ən qüdrətli partiyasıdır. Partiyanın avanqard qüvvələrindən olan YAP Səbail rayon təşkilatının üzvləri də ictimai-siyasi proseslərdə fəal iştirak edirlər".

Ş.Hacıyev, ötən il ölkəmizin həyatında ən mühüm ictimai-siyasi hadisələrindən biri kimi referendumun önəmini qeyd edib və bu prosesdə YAP-ın, o cümlədən, Səbail rayon təşkilatının da fəal iştirak etdiyini vurğulayıb.

Sonra YAP Səbail rayon təşkilatının ötənilki fəaliyyətinin yekunlarını əks etdirən təqdimat nümayiş olunub.

Görüşdə Milli Məclisin sədr müavini, YAP İdarə Heyətinin üzvü Bahar Muradova 24-cü ildönümlərini qazandıqları uğurları ilə qeyd edən təşkilat üzvlərini təbrik edərək, onlara qarşıdakı illərdə də nailiyyətlər arzuladı: "Siyasi fəaliyyətdə əhəmiyyətsiz məqam olmur. Seyr etdiyimiz video-çarx YAP Səbail rayon təşkilatının uğur salnaməsi kimi dəyərləndirildi. Sürət əsrində yaşadığımız üçün 24 il az müddət deyil. Göründüyü kimi, təşkilatın bütün üzvləri vaxtı səmərəli qiymətləndirərək ölkənin siyasi-iqtisadi həyatında fəal iştirak etmişlər. Partiyanın Mərkəzi Aparatının tədbirlərində, siyasi kampaniyalarda iştirak etməklə, Azərbaycanın qüdrətlənməsi naminə fədakarlıq göstərən bütün səbaillilәri təbrik edirəm".

Təşkilatın ötən 24 ildəki fəaliyyətinin qənaətbəxş olduğunu vurğulayan B.Muradova bildirib ki, YAP-ın bütün üzvləri partiyanın yaradıcısı Ümummilli Lider Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Prezident İlham Əliyevin ətrafında sıx birləşərək, ölkəmizin inkişafı prosesinə mühüm töhfə verirlər. B.Muradova, eyni zamanda, hazırda YAP-ın bütün təşkilatlarında hesabat-seçki yığıncaqlarının keçirildiyini, partiyaya yeni nəfəs gəldiyini deyərək, əldə olunan uğurlarda partiyanın veteranlarının mühüm rolunu qeyd edib, qarşıdakı illərdə təşkilatın üzvlərinə uğurlar arzulayıb.

Səbail rayon icra hakimiyyətinin başçısı Eldar Əzizov əlamətdar gün münasibətilə təşkilatın üzvlərini təbrik edib. YAP-ın regionda ən böyük və qüdrətli siyasi qüvvəyə çevrildiyini vurğulayan E.Əzizov partiyaya yeni üzvlərin, xüsusən, gənclərin cəlb olunması istiqamətində geniş təbliğat işinin aparılmasının vacibliyini bildirib. O, Ulu Öndər Heydər Əliyevin ideyalarının, Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən siyasət nəticəsində, əldə olunan uğurların təbliğində partiyanın hər bir üzvünün fəal iştirak etməsinin vacibliyini diqqətə çatdırıb.

Görüşdə digər çıxışlarda da YAP Səbail rayon təşkilatının ötən ildəki fəaliyyəti yüksək qiymətləndirilib. Sonda hesabat məruzəsi səsə qoyularaq təsdiq edilib.

**R.HÜSEYNOVA**

# XOCALI FACİƏSİ...

*Qan yaddaşımızın ən faciəli, ağrılı nisgili ürəyimizdə daim yaşatdığımız Xocalı soyqırımı... 1992-ci il fevralın 25-dən 26 -sına keçən gecə erməni quldurları Rusiya ordusunun Xankəndidə yerləşən 366-cı moto-atıcı alayı bölmələrinin yardımı və iştirakı ilə Azərbaycanın Xocalı şəhərində genosid aktı həyata keçirdilər.*



O gecə dəhşət yaşadı Xocalı. Elə bir dəhşət ki, hələ yer üzü belə bir müsibət, belə bir vəhşilik görməmişdi. O gecə evlərə-eşiklərə od vuruldu, torpaq qana qərq edildi. Düşmən rəhm diləyən qocaya, xəstəyə və qadına aman vermədi. Uşaqlar valideynlərinin gözləri qarşısında



xüsusi qəddarlıqla qətlə yetirilirdilər. Xocalının neçə-neçə qeyrətli oğlu erməni terrorçularının qəbirləri üstündə qurbanlıq kəsildilər. Aramsız güllə yağışından qurtulub ayağı yalın, başıaçıq halda meşələrə - dağlara üz tutanların çoxsu yolda dondu, qar uçqunlarına düşdü.

O gecə hara gedəcəyini, kimdən imdad diləyəcəyini bilməyən uşaqların doğmalarının meyitləri arasında caş-baş halda vurnuxmalarını, ətrafda nə baş verdiyindən xəbərsiz körpənin gözlərini həyata əbədi yummuş ananın buz kimi soyuq döşlərini əmməsini göz önünə gətirin... Həmin gecə Xocalı sakinlərinin üzləşdikləri müsibətlərin hansı birini deyəsən, hansı birini yazasan? Qələm acizdir erməni vəhşiliklərini təsvir etməkdə... Xocalı soyqırımı təkcə Xocalı sakinlərini yox, bütün Azərbaycan xalqının dərdi-qəmidir. Çünki həlak olmuş hər bir soydaşımız öz ailəsi ilə bərabər Azərbaycanın övladıdır və bu, Azərbaycan xalqının matəmidir. Bu qədər faciəli günlər keçirmiş, o dəhşətli və müdhiş gecəni yaşamış, ən əziz adamlarını gözlərinin qabağında itirmiş insanlar məğrur və mərddirlər. Bu, xalqımızın nə qədər yüksək mənəviyyata malik olduğunu göstərir. Xocalı sakinlərinin bu yüksək mənəvi keyfiyyətləri bütün Azərbaycan xalqının mənəvi keyfiyyətlərini əks etdirir. Amma Xocalı sakinləri hamı üçün örnəkdir, nümunədir - qəhrəmanlıq, mərdlik, mətanətlilik nümunəsidir, eyni zamanda, vətənpərvərlik nümunəsidir. Xocalı soyqırımının epizodları insanı dəhşətə gətirir. Xocalı sakini zoraki erməni hərbçilərinin tələb etdiyi "bu yerlər böyük Ermənistanın bir hissəsidir" sözlərini dilinə gətirmədiyinə görə ermənilər tərəfindən divan tutuldu dinc əhaliyə... Bütün bunlar erməni hərbçiləri tərəfindən xüsusi amansızlıqla və ağlasığmaz vəhşiliklə həyata keçirilmişdir. Cinayətkar hərbi birləşmələrin vəhşiliyi nəticəsində 613 nəfər şəhid, 487 nəfər əlil olmuş,1275 nəfər dinc sakin - qocalar, uşaqlar,qadınlar əsir götürülərək ağlasığmaz erməni zülmünə, təhqirlərə və həqarətlərə məruz qalmışlar. 150 nəfərin taleyi hələ də məlum deyildir. Şəhid olanların 106 nəfəri qadın, 63 nəfəri isə azyaşlı uşaqlar olmuşlar, şikəstlərin 76 nəfəri yetkinlik dövrünə çatmamış oğlan və qızlardır. 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 azyaşlı uşaq isə valideynlərindən birini itirmişdi. Şəhid olanların yalnız 335 nəfəri dəfn olunmuşdur.200 nəfərin ayaqları soyuqdan qanqrena olmuş, 1000 nəfərdən artıq şəhər sakini müxtəlif dərəcəli bədən xəsarəti almışdılar.Bu cinayətdə 56 nəfər xüsusi qəddarlıqla və amansızlıqla qətlə yetirilmişdir. Onlar diri-diri yandırılmış, başları kəsilmiş, dərisi soyulmuş, körpə uşaqların gözləri çıxarılmış, süngü ilə hamilə qadınların qarınları yarılmışdı. Meyitlər üzərində dilə gətirilməsi mümkün olmayan təhqiramiz hərəkətlər edilmişdir. Şəhər əhalisinin bir hissəsi zorakılıqdan qaçıb qurtarmaq istəyərkən, əvvəlcədən düzəldilmiş pusqularda qətlə yetirilmişdir.

Rusiyanın "Memorial" Hüquq-Müdafiə Mərkəzinin məlumatına əsasən, dörd gün ərzində Ağdama Xocalıda qətlə yetirilmiş 200 azərbaycanlının meyiti gətirildi. Ermənilər sağ qalmış insanlar üzərində tamamilə təhqiredici hərəkətlər həyata keçirmişdilər. O zamankı ölkə rəhbərliyinin bu soyqırıma olduqca laqeyd və qətiyyətsiz münasibəti nəticəsində ermənilərin işğalçılıq, etnik təmizləmə, terrorçuluq, habelə, Xocalı soyqırımı kimi dəhşətli cinayət törətməsinə dünya ictimaiyyəti biganə yanaşmış, təcavüzkarın cilovlanması üçün beynəlxalq səviyyədə hansısa təsirli tədbirlər görülməmişdir.

BMT-yə yeni üzv qəbul olunmuş Azərbaycanın həmin dövrdə bu mötəbər təşkilatın prinsiplərinə əsaslanmaqla Xocalıda baş verən faciənin soyqırımı kimi tanınması istiqamətində zəruri tədbirlər həyata keçirməməsi də olduqca üzücü və təəssüfləndirici faktdır. Halbuki beynəlxalq hüquqa görə, genosid sülh və bəşəriyyət əleyhinə yönələn əməl olaraq, ən ağır beynəlxalq cinayətlərdən biri sayılır. BMT Baş Məclisinin 1946-cı il 11 dekabr tarixli 96 (I) saylı qətnaməsində isə qeyd olunur ki, genosid, insan qruplarının yaşamaq hüququnu tanımamaqla insan mənliyini təhqir edir, bəşəriyyəti insanlar tərəfindən yaradılan maddi və mənəvi dayaqlardan məhrum edir. Belə bədnam əməllər BMT-nin məqsəd və vəzifələrinə tam ziddir. BMT Baş Məclisinin 1948-ci il tarixli 260 (III) saylı qətnaməsi ilə qəbul edilmiş "Genosid cinayətinin qarşısının alınması və cəzalandırılması haqqında" Konvensiyanın 2-ci bəndində göstərilən şərtlər də Xocalı faciəsinin, məhz soyqırımı adlandırılmasına tamamilə imkan yaradırdı. Konvensiyaya qoşulan dövlətlər sülh, yaxud müharibə dövründə törədilməsindən asılı olmayaraq, genosidin beynəlxalq hüquq normalarını pozan cinayət olduğunu təsdiq edərək, onun qarşısının alınması və səbəbkarlarının cəzalandırılması üçün tədbirlər görməyi öhdələrinə götürmüşlər. Ermənistanın Azərbaycana qarşı təcavüzü zamanı həmin Konvensiyada təsbit olunmuş genosid cinayətini təşkil edən bütün əməllər tətbiq olunmuşdur. Həmin beynəlxalq sənəddə göstərilir ki, hər hansı milli, etnik, yaxud dini qrupun tam və ya qismən məhv edilməsilə törədilən bir sıra hərəkətlər genosid (soyqırımı) cinayətinin mahiyyətini təşkil edir. Bu hərəkətlər - həmin qrupun üzvlərinin öldürülməsi, ağır bədən xəsarətinin, onların fiziki məhvinə səbəb olan həyat şəraitinin yaradılması, uşaqların zorla bir insan qrupundan alınıb başqalarına verilməsi törədilmiş cinayətin soyqırımı kimi tövsif edilməsinə əsas verir. Bu hüquqi meyarlardan yanaşdıqda, ermənilərin Xocalıda törətdikləri dəhşətli cinayətlərin genosid olduğuna heç bir şübhə qalmır. Həmin gün mənfur erməni silahlı birləşmələri Xocalı əhalisini, məhz milli-etnik, dini səbəblərlə son nəfərinədək qətlə yetirmək, məhv etmək məqsədini qarşıya qoymuşdular.

Ermənistanın müharibə zamanı beynəlxalq hüquq normalarına məhəl qoymaması ilə bağlı faktlar yalnız bununla bitmir. Beynəlxalq humanitar hüququn tələblərinə əsasən, müharibə yalnız silahlı münaqişədə olan tərəflərin silahlı qüvvələri arasında aparılmalıdır. Mülki əhali döyüşlərdə iştirak etməməli və onlarla hörmətlə davranılmalıdır. "Müharibə zamanı mülki şəxslərin müdafiəsinə dair" IV Cenevrə Konvensiyasının 3-cü maddəsinə əsasən, mülki əhalinin həyatına və təhlükəsizliyinə qəsd, o cümlədən, onların hər cür öldürülməsi, şikəst edilməsi, onlarla qəddar davranılması, onlara əzab və işgəncə verilməsi, insan ləyaqətinə qəsd, təhqir və alçaldıcı hərəkətlər qadağan edilir. Konvensiyanın 33-cü maddəsində isə qeyd olunur ki, heç bir mülki şəxs törətmədiyi hüquq pozuntusuna görə cəzalandırıla bilməz. Mülki əhaliyə qarşı kollektiv cəza tədbirlərinin görülməsi, mülki əhalini qorxuya salmaq, onlara qarşı terror hərəkətləri, bu insanların repressiyaya məruz qoyulması birmənalı qadağan edilir. Həmin Konvensiyanın 34-cü maddəsinə görə, mülki əhalinin girov götürülməsi də qadağandır. Lakin təkcə Xocalıda 1000-dən artıq insanı girov götürən ermənilər bu prinsipə də aşkar sayğısızlıq nümayiş etdirmişdilər. Ermənistan silahlı qüvvələri bu hüquq normalarına məhəl qoymamış, Xocalıda dinc əhalinin məhvi üçün ən qəddar üsullara əl atmışlar.



1992-1993-cü ilin yarısına qədər hakimiyyətdə olmuş səriştəsiz və yarıtmaz qüvvələr bu və digər hüquq normalarına əsaslanmaqla Xocalı faciəsinin real mahiyyətinin dünya ictimaiyyətinə çatdırılması üçün heç bir iş görmədilər. Halbuki artıq Dağlıq Qarabağ münaqişəsi beynəlxalq ictimaiyyətin diqqət mərkəzinə gətirildiyi, beynəlxalq müstəvidə danışıqların başlandığı dövr idi. Ermənilər Azərbaycanın guya təcavüzkar olduğunu sübuta yetirmək üçün təbliğat maşınını tam gücü ilə işə salaraq "Sumqayıt olaylarını" dünyaya bəyan etdilər. Biz isə yaşadığımız gerçək qətliamı dünyanın önünə çıxarmağa tələsmirdik. Hətta 1993-cü il fevralın 23-də imzalanmış "Azərbaycana qarşı edilmiş vəhşiliklərin açıqlanması haqqında" fərman da kağız üzərində qalmışdı.

Xocalı soyqırımının beynəlxalq müstəvidə tanıdılması və erməni faşizminin ifşası ilə bağlı ilk praktik təşəbbüs isə Ulu Öndərimiz Heydər Əliyevin xalqın təkidli tələbilə hakimiyyətə qayıdışından sonrakı mərhələyə təsadüf edir. Ümummilli Liderimiz ilk gündən Ermənistanın Azərbaycana qarşı həyata keçirdiyi soyqırımı və terror siyasətinin mahiyyətini, habelə, ərazilərimizin işğalından sonra Dağlıq Qarabağın terrorizm mənbəyinə çevrilməsi, orada narkotik maddələrin yetişdirilməsi, mədəni abidələrin məhv edilməsi faktlarının və digər faktların dünya ictimaiyyətinə çatdırılmasını xarici siyasətdə mühüm vəzifələrdən biri kimi müəyyənləşdirdi. Bu məqsədlə atılan mühüm addımlardan biri də erməni təcavüzü nəticəsində, üzləşdiyimiz milli faciələrimizə siyasi-hüquqi qiymətin verilməsi oldu.

Ulu Öndərin təşəbbüsü ilə 1994-cü il fevralın 24-də Milli Məclis "Xocalı soyqırımı günü haqqında" qərar qəbul etmiş, BMT-yə, dünya dövlətlərinə bu qətliamın gerçək mahiyyətini açıqlayaraq beynəlxalq ictimaiyyəti erməni terrorizminə qarşı təsirli tədbirlər görməyə çağırmışdır. Son 25 ildə Xocalı həqiqətlərinin dünyaya tanıdılması, Ermənistanın sovet hərbi dairələrinin dəstəyi ilə həyata keçirdiyi insanlıq əleyhinə cinayətin beynəlxalq miqyasda ifşası istiqamətində xeyli iş görülmüş, xarici dillərdə kitablar, sənədlər dərc olunmuş, Xocalı genosidi müxtəlif təşkilatlarda gündəmə gətirilmiş, bununla bağlı bir çox internet saytları yaradılmışdır.

Artıq dünya ictimaiyyəti də həqiqətin nədən ibarət olduğunu çox yaxşı başa düşür. İslam Əməkdaşlıq təşkilatının Xocalı soyqırımı ilə bağlı qəbul etdiyi xüsusi qətnamə beynəlxalq təşkilatlar tərəfindən Xocalı faciəsini "İnsanlığa qarşı cinayət" kimi tanıyan ilk sənəddir. 51 ölkənin qəbul etdiyi qətnamədə Xocalı faciəsinə "erməni silahlı qüvvələri tərəfindən dinc əhalinin kütləvi qətliamı" və "insanlığa qarşı cinayət" kimi qiymət verilmişdir. Hazırda Pakistan, Meksika, Çexiya, Kolumbiya, Bosniya və Herseqovina parlamentləri Xocalı faciəsini soyqırımı və Azərbaycana qarşı cinayət aktı kimi tanıyıblar. Bundan əlavə, ABŞ-ın bir sıra ştatları bu soyqırımı tanıyıb.

Bütövlükdə, Azərbaycan xalqına qarşı yönəldilmiş bu Xocalı Soyqırımı öz ağlasığmaz qəddarlığı və qeyri-insani cəza üsulları ilə bəşər tarixində tayı-bərabəri olmayan bir vəhşilik aktıdır. Bu soyqırımı, eyni zamanda, bəşəriyyətə qarşı tarixi bir cinayətdir.

**Aysel Əliyeva,**
**Ədliyyə Nazirliyinin Məhkəmə Ekspertizası Mərkəzinin əməkdaşı**

# "Xocalı Soyqırımı: 25 il yaddaşımızda"

*Bu mövzuda Nizami rayonunda Xocalı Soyqırımının 25-ci ildönümü ilə əlaqədar tədbir keçirilib*



Dünən Xocalı Soyqırımının 25-ci ildönümü ilə əlaqədar Nizami rayon icra hakimiyyəti və Yeni Azərbaycan Partiyası Nizami rayon təşkilatının birgə təşkilatçılığı, "İki sahil" qəzetinin və "Bakcell" şirkətinin dəstəyi ilə 32 saylı orta məktəbdə "Xocalı Soyqırımı: 25 il yaddaşımızda" mövzusunda tədbir keçirilib.

Tədbir iştirakçıları öncə eyniadlı mövzuda təşkil olunmuş rəsm sərgisi ilə tanış olublar. Sonra işini akt zalında davam etdirən tədbirdə çıxış edən Nizami rayon icra hakimiyyətinin başçısı Arif Qasımov Xocalı Soyqırımının insanlığa qarşı törədilmiş ən dəhşətli cinayət olduğunu bildirib.

YAP Nizami rayon təşkilatının sədri, Milli Məclisin deputatı Sədaqət Vəliyeva çıxışında qeyd edib ki, bəşər tarixinin ən qanlı cinayətlərindən olan Xocalı Soyqırımından 25 il keçir: "Həmin gün insan qanına susamış erməni cəlladları bütün dünyanın gözü qarşısında Azərbaycanın bu qədim şəhərində soyqırımı törədib, heç bir günahı olmayan yüzlərlə dinc insanı qətlə yetiriblər".

Tədbirdə Şuşa rayon icra hakimiyyətinin başçısı, Dağlıq Qarabağ Bölgəsinin Azərbaycanlı İcması İctimai Birliyinin sədri Bayram Səfərov, Erməni Təcavüzünün Tanıdılması İctimai Birliyinin sədri Səriyyə Müslümqızı və başqaları bildiriblər ki, ermənilər Xocalıda qəddarlıq nümayiş etdirərək xüsusi amansızlıqla qadın-uşaq demədən, kütləvi qırğın törədiblər.

Anım mərasimində "İki sahil" qəzetinin baş redaktoru, YAP Siyasi Şurasının üzvü, Əməkdar jurnalist Vüqar Rəhimzadə çıxış edərək Xocalı soyqırımı ilə bağlı həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması və Xocalı soyqırımına hüquqi-siyasi qiymət verilməsi istiqamətində Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərini yüksək qiymətləndirib, hazırda bu istiqamətdə ölkə rəhbərliyi tərəfindən məqsədyönlü tədbirlərin həyata keçirildiyini diqqətə çatdırıb.

Tədbirdə Bakı şəhəri üzrə Təhsil İdarəsininin müdiri Məhəbbət Vəliyeva, Xocalı soyqırımı zamanı hər iki valideynini itirmiş, milli qəhrəman Tofiq Hüseynovun oğlu Murad Hüseynov da soyqırımı ilə bağlı xatirələrini danışıblar.

Çıxışlardan sonra rayon məktəbliləri arasında elan edilmiş "Xocalı Soyqırımı: 25 il yaddaşımızda" mövzusunda inşa və rəsm müsabiqəsinin qaliblərinin mükafatlandırılması mərasimi olub.

Keçirilmiş müsabiqələrdən söz açan YAP Nizami rayon təşkilatının aparat rəhbərti Ramil Vəlibəyov bildirib ki, bu cür müsabiqələrlə həm gənc nəslin Azərbaycan tarixi ilə bağlı maarifləndirilməsinə, həm də onların bilik və bacarıqlarının, yaradıcılıq potensiallarını üzə çıxarmağa çalışırıq: "Fevral ayının 15-də yekunlaşan müsabiqəyə iki dildə, ümumilikdə, 20-dən artıq məktəbdən 30 inşa və 25 rəsm əsəri daxil olub. Yaradılmış komissiya tərəfindən keçirilmiş qiymətləndirmə zamanı müsabiqənin qaliblər müəyyənləşdirilibdir".

Sonra qaliblərə diplomlar və hədiyyələr təqdim edilib. Daha sonra 32 saylı orta məktəbin kollektivinin rayon Mədəniyyət Mərkəzi ilə birgə hazırladığı "Dağın ətəyində bir yaşıl kənd var idi" adlı ədəbi-bədii kompozisiya nümayiş etdirilib.

Sonda xatirə şəkli çəkdirilib.

**R.HÜSEYNOVA**

# Müxalifətin xaricdən maliyyə mənbəyi axtarması onun zəifliyidir

*Yunus Oğuz: "Müxalifətçilər xaosun içində, bulanıq suda balıq tutmaq istəyirlər"*



Azərbaycanda özünü "ana müxalifət" adlandıran dağıdıcı partiyalar özlərini əsas "siyasi güc" kimi təqdim etməyə çalışsalar da, reallıq başqa şey deyir. Sosial bazası olmayan, ideologiyadan, konsepsiya və proqramlardan xəbəri olmayan dağıdıcı müxalifət partiyaları öz nəzarətlərində olan media orqanlarında "əzələ" nümayiş etdirməyə çalışırlar. Lakin bütün addımlar, sadəcə olaraq, gülüş doğurur. Ötən əsrin 80-90-cı illərinin təfəkkürü ilə yaşayan, hər kəsin "prezident" olmaq istədiyi, şəxsi istək və arzuların milli maraqlardan üstün tutulduğu bu partiyaların fəaliyyəti sıfıra bərabərdir. Şəxsi ambisiyalarına partiya maraqlarını qurban verən müxalifət "lider"ləri bu gün tam iflic olmuş vəziyyətdə xaricdə özlərinə arxa-dayaq axtarmaqla məşğuldurlar. Xalqla heç bir halda təmas qura bilməyən və xalqın siyasi səhnədən silib atdığı bu siyasətbazlar ünsürlər üçün başlıca məqsəd pul qazanmaqdır. Ötən əsrin 90-cı illərinin əvvəllərində AXC-Müsavat iqtidarı dövründə bu şəxslərin dövlət büdcəsini necə taladıqlarının şahidi olmuşduq. Səriştəsiz, bəzi xarici dairələrin "casus"una çevrilən, erməni dəyirmanına su tökən bu şəxs və partiyalardan başqa nə gözləmək olardı ki!? Bu partiyaların bugünkü durumu daha dəhşətlidir: qapı-qapı gəzib qrant dilənmək, Azərbaycan dövlətinin əleyhinə, ermənilərlə də olsa, iş birliyi qurmaq bunların əsas fəaliyyət istiqamətini təşkil edir.

Milli Vəhdət Partiyasının sədri, "Olaylar" qəzetinin baş redaktoru Yunus Oğuz dağıdıcı müxalifətin bugünkü durumundan danışıb. O, qeyd edib ki, bugünkü müxalifət tamam başqa formatdadır: "15-20 il əvvəlki müxalifət yoxdur. Əlbəttə, dövlət varsa, müəyyən çatışmazlıqlar olacaq. Bu narazılıq da geniş miqyas almırsa, demək, bu, lokal xarakter daşıyır. Həmişə hər bir sahədə narazılıq olur. Adi məişət məsələlərinə münasibətdə də narazılıqlar ortaya çıxır. İndiki müxalifət də o zamankı müxalifət deyil. İnsanlar ölkədə xaosun olmasını istəmirlər. Azərbaycanda müxalifətçilər var ki, həmişə xaos arzulayırlar. Bu xaosun içində, bulanıq suda balıq tutmaq istəyirlər. Ziyalıların müxalif düşərgədən getmələri, baş verənlərdən kənarda durmaları müxalifəti pis vəziyyətdə qoydu. Bir o vaxtkı müxalifətin, bir də indiki müxalifətin tərkibinə baxın, nə qədər fərqlər görəcəksiniz. 20 il əvvəlki müxalifət həssas situasiyada istər iqtisadi, istər sosial, istərsə də siyasi sahələrdə təkliflərini verirdilər, ziyalılar aktiv idilər. İndi bunların heç biri yoxdur. İndi bəziləri xaricə getmək üçün mitinq keçirir, buna görə də, bir-iki nəfəri döydürürlər, guya böyük mitinq ediblər. Ənənəvi müxalifət liderləri düşünən beyinləri bu düşərgədən uzaqlaşdırmaq kursunu seçdilər. Onların da yalnız hay-küyçü lətifələri qalıb. Bugünkü müxalifətin zəif olmasının səbəblərindən biri də onun həm daxili, həm də xarici qüvvədən asılı olmalarıdır. Həmin düşərgənin məkrli simaları tapdıqları maliyyə mənbələrini sırf öz maraqlarına, özlərinə sərf edən insanlara xərcləməyə başladılar. Bu məsələlərlə bağlı kifayət qədər faktlar saya bilərəm. Bəzi xarici pozucu siyasi dairələr onları inandırmışdılar ki, kütlə psixologiyasından asılı olaraq, həmin dövr gələndə, xalq ayağa qalxacaq və sizi hakimiyyətə gətirəcək. Hakimiyyətə gəlmək iddiası həmin şəxslərin gözlərini uzun müddət elə bağladı ki, onlar həm xalqdan, həm dövlətdən, həm də ziyalılardan ayrıldılar. Bütün diqqətlərini arxalarında duran xarici qüvvələrə dikdilər".

**SAMİR**

# Şərqşünaslıq İnstitutunda Xocalı Soyqırımı qurbanlarının xatirəsi anılıb



Dünən AMEA-nın akademik Ziya Bünyadov adına Şərqşünaslıq İnstitutunda Xocalı faciəsi qurbanlarının xatirəsi yad edilib.

Tədbirdə institutun direktoru, AMEA-nın müxbir üzvü Gövhər Baxşəliyeva Xocalı faciəsinin ağır nəticələrindən danışaraq, xalqımızın bu günü böyük hüzn və kədərlə qeyd etdiyini söyləyib. O, Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla xanım Əliyevanın təşəbbüsü ilə həyata keçirilən "Xocalıya ədalət" beynəlxalq kampaniyasına dəstək olaraq qəbul etdiyi bəyannamələrdən danışıb.

Tədbirdə institutun din və ictimai fikir tarixi şöbəsinin müdiri, fəlsəfə üzrə fəlsəfə doktoru Esmeralda Həsənova, ərəb filologiyası şöbəsinin müdiri, filologiya üzrə elmlər doktoru Vilayət Cəfərov, Cənubi Azərbaycan şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru Səməd Bayramzadə, Mərkəzi Asiya ölkələri şöbəsinin müdiri, iqtisad üzrə elmlər doktoru Dünyamalı Vəliyev və başqaları çıxış edərək, Xocalı faciəsini bəşəriyyətə qarşı ən böyük ədalətsizlik adlandırıblar. Onlar insanlığa qarşı cinayət törədənlərin cəzasız qalmayacaqlarını bildiriblər.

**NƏZAKƏT**

# Gürcüstan parlamentarisi: Xocalı faciəsinə düzgün qiymət verməliyik ki, bu cür hadisələr bir daha təkrarlanmasın

Gürcüstanın azərbaycanlıların yığcam yaşadıqları Qardabani rayonundan seçilən deputat, hakim "Gürcü arzusu-demokratik Gürcüstan" partiyasının üzvü Savalan Mirzəyev parlamentin fevralın 22-də keçirilmiş iclasında Xocalı soyqırımı ilə bağlı çıxış edib. S.Mirzəyev bildirib ki, düz 25 il əvvəl - 1992-ci il fevralın 26-da baş verən hadisə Qafqaz xalqlarının tarixinə qara hərflərlə yazılıb. O, azərbaycanlıların yaşadığı Xocalı şəhərində törədilən faciədə 613 nəfərin, o cümlədən 106 qadın, 63 uşaq və 70 qocanın qətlə yetirildiyini diqqətə çatdırıb. O deyib: "Bizlər bu tribunadan uca səslə Xocalı faciəsini yada salmalıyıq və bu faciəyə düzgün qiymət verməliyik ki, bu cür hadisələr nə bizim bölgədə, nə də bütün dünyada təkrarlansın. Qafqazda müharibələr bitməlidir, biz mütləq Qafqaz xalqlarının birlik və sülh mühitində yaşamasına nail olmalıyıq".

S.Mirzəyev sonra mətbuata açıqlama verib. O deyib: "Gürcüstan -Azərbaycan əlaqələri hər zaman yüksək səviyyədə olub və əsrlər boyu da belə davam edəcək. Gürcüstan Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir. Biz azərbaycanlı deputatlar olaraq mənəvi borcumuzu yerinə yetirdik və Xocalı soyqırımı ilə bağlı məsələni parlamentin tribunasından qaldırdıq".

# Daşkəsən rayonu inkişaf yolunda

## Rayonda 2016-cı ilin sosial-iqtisadi inkişafının yekunları və qarşıda duran vəzifələrə dair hesabat yığıncağı keçirildi

***Dünən Daşkəsən rayonunda 2016-ci ilin sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş ümumrayon hesabat yığıncağı keçirilib. Yığıncaq iştirakçıları, öncə, Ümummilli Lider Heydər Əliyevin rayon mərkəzində ucaldılmış abidəsi önünə gül dəstələri qoymuş, sonra rayon icra hakimiyyətinin inzibati binasında yığıncaq öz işinə başlamışdır.***

Daşkəsən rayon icra hakimiyyətinin başçısı Əhəd Abıyev hesabat məruzəsi ilə çıxış edərək bildirib ki, respublikamızın digər rayonlarında olduğu kimi, Daşkəsən rayonunda da 2016-cı ildə bir çox uğurlu işlər və nailiyyətlər əldə olunubdur: “2016-cı ildə Daşkəsən rayonunda faktiki qiymətlərlə ümumi məhsul buraxılışının həcmi əvvəlki ilə nisbətən 2,9 faiz çox olubdur. Rayon üzrə 2016-cı ildə 877-si daimi olmaqla, 972 yeni iş yeri açılıbdır, 500 nəfər rayon ərazisində mövsümi təmir-tikinti işlərinə cəlb edilibdir. Daşkəsən rayonunda 820 qaçqın ailəsi (3540 nəfər) və 321 məcburi köçkün ailəsi (976 nəfər) yerləşir. Onlara, bir qayda olaraq, daim qayğı və diqqət göstərilir”.





Ə.Abıyev ötən il ərzində tikinti, təmir-bərpa, yenidənqurma, abadlıq-quruculuq işləri ilə də bağlı məlumat verərək bildirib ki, “Alunit” İstehsalat Sahəsində qəza vəziyyətində olan 35/6 kV-luq elektrik yarımstansiyasının funksiyasını yerinə yetirəcək yeni yarımstansiyanın tikintisi başa çatdırılaraq istifadəyə verilibdir.

Rayonda kənd təsərrüfatı məhsullarının istehsalının artırılması ilə bağlı işlərin görüldəüyünü deyən Ə.Abıyev bildirib ki, rayonda 2 kartofçuluq, 2 taxılçılıq üzrə toxumçuluq təsərrüfatları və 1 damazlıq mal-qara təsərrüfatı fəaliyyət göstərir: “Ötən ildə, ümumilikdə, 2178 hektar torpaq sahəsində kənd təsərrüfatı bitkiləri əkilmişdir ki, bundan 1232 hektar kartof, 641 hektar buğda, 41 hektar arpa, 101 hektar tərəvəz, 55,2 hektar lobya, 45 hektar sahədə çoxillik otlar və digər əkin sahələri təşkil etmiş, cari ilin məhsulu üçün 740 hektar sahədə taxıl səpilibdir. “Arıçılıq haqqında” qanunun tələblərinə uyğun olaraq, rayonda arı ailələrinin saxlanması üçün əlverişli şəraitin və imkanların mövcud olması nəzərə alınaraq 2016-cı il ərzində də arıçılığın inkişafı üçün tədbirlər davam etdirilir. Hazırda rayon ərazisində 4867 arı ailəsi vardır”.

Ə.Abıyev çıxışında onu da bildirdi ki, Daşkəsən filizi ilşə bağlı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Nazirlər Kabinetinin 2016-cı ilin doqquz ayının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunmuş iclasında vurğulaması bizi fərəhləndirir: “Yaxın gələcəkdə ölkəmizdə böyük metallurgiya kompleksinin tikintisi nəzərdə tutulur. Bunun üçün bizim Daşkəsən filiz yataqları kimi resurs bazamız var. Bu gün o yataqlardan çox səmərəsiz istifadə olunur, çıxarılan filiz, sadəcə olaraq, xammal kimi xaricə satılır. Yaxın aylarda biz o sahənin işini təmin edə bildik. Əfsuslar olsun ki, orada aylarla iş aparılmırdı. İnsanlar işsiz qalmışdılar, böyük borclar yaranmışdı. İndi orada sağlamlaşma prosesi gedir və biz bu böyük təbii resursdan çox səmərəli şəkildə istifadə etməliyik. Buna görə, bir neçə zavoddan ibarət olacaq yeni böyük metallurgiya kompleksinin tikintisi nəzərdə tutulur. Böyük vəsait qoyulacaq və biz elə etməliyik ki, xammaldan son ən keyfiyyətli məhsula qədər Azərbaycanda istehsal olunsun və əminəm ki, istehsal olunacaq”.

Rayon rəhbəri yol-təmir işləri ilə bağlı bildirib ki, 3300 nəfər əhalinin yaşadığı, 9 yaşayış məntəqəsini birləşdirən 25 kilometr uzunluğunda Daşkəsən-Əmirvar-Qabaqtəpə avtomobil yolunun tikintisi üzrə müvafiq sənədlər aidiyyəti üzrə qurumlara təqdim olunmuş və bu tədbirin həyata keçirilməsi “Azərbaycan Respublikası regionlarının 2014-2018-ci illərdə sosial - iqtisadi inkişafı Dövlət Proqramı”na daxil edilmişdir: “Eyni zamanda, əhalinin elektrik enerjisi, qaz və içməli su ilə təchizatı vəziyyətinin yaxşılaşdırılması məqsədilə daxili imkanlar hesabına bir sıra təmir-bərpa, yenidənqurma işləri həyata keçirilibdir. Hazırda rayonun 49 yaşayış məntəqəsindən cəmi 6 yaşayış məntəqəsi təbii qazla təmin olunur. Hesabat ilində rayonun Zağalı kəndində 90, Qazaxyolçular kəndində isə 68 abonent təbii qazla təmin olunmuş, Qaraqollar kəndində isə abonentlərin təbii qazla təmin olunmaları üçün işlər davam etdirilir. Həmin işlərin sürətləndirilməsi olduqca vacibdir. Qaz Xidmət Sahəsi üzrə 2016-cı il ərzində əhaliyə verilən təbii qazın dəyərinin ödənilməsi 94,6%, ümumi ödəmə üzrə isə göstərici 88,8% olmuşdur. Rayonda istehlakçıların təbii qazla təmin olunmasında mövcud problemlərin həll edilməsi üçün Qaz Xidmət Sahəsinin rəhbərliyi aidiyyəti üzrə lazımi tədbirlər görməlidir.

Daşkəsən rayon Sukanal İdarəsi üzrə 2016-cı il ərzində müəyyən işlər görülmüşdür”.

Toplantıda əldə olunmuş nailiyyətlərlə yanaşı, həmçinin, həllini gözləyən digər problemlər və onların aradan qaldırılması yolları müzakirə olunub.

Tədbirdə, həmçinin, Milli Məclisin üzvü Kamran Bayramov, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının məsul işçisi Arif Novruzov çıxış ediblər.

Yığıncağın sonunda toplantı iştirakçıları adından ölkə Prezidenti İlham Əliyevə müraciət qəbul olunubdur.

***R.KAMALQIZI***



# Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının hesabat-seçki yığıncağı keçirilib

Yeni Azərbaycan Partiyası Siyəzən rayon təşkilatının VII konfransına hazırlıqla əlaqədar SOCAR XMQKİ ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib. Tədbiri giriş sözü ilə rayon təşkilatının sədri Etibar Heydərov açaraq, partiyanın yaranma tarixindən, fəaliyyətindən, ölkənin və rayonun ictimai-siyasi həyatındakı rolundan danışıb. Tədbirdə ərazi partiya təşkilatının sədri Səbirə İbrahimova geniş hesabat məruzəsi ilə çıxış edərək, hesabat dövrü ərzində görülmüş işlərlə bağlı məlumat verib.

İclasda çıxış edən Siyəzən rayon təşkilatının aparat rəhbəri İxtiyar İsayev görülən işləri qənaətbəxş hesab edərək, ərazi ilk partiya təşkilatına işlərində uğurlar arzulayıb.

İclasda qəbul olunan qərara əsasən, ərazi ilk partiya təşkilatının idarə heyətinin üzvləri, Mircəlal Kazımzadə sədr, sədrin müavinləri, həmçinin, YAP Siyəzən rayon təşkilatının VII konfransına nümayəndələr seçilib.

Yığıncağın sonunda patiyaya yeni qəbul olunmuş üzvlərə vəsiqələr təqdim edilib.

***NƏZAKƏT***

# Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının IX konfransına hazırlıq işləri uğurla davam edir



Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının IX konfransının keçirilməsi ilə bağlı hazırlıq çərçivəsində 8-ci mikrorayon, H.Hüseynov küçəsi 5 ünvanlı (3 saylı Uşaq Dəri Zöhrəvi Dispanseri) ərazi ilk partiya təşkilatında hesabat-seçki yığıncağı keçirilib.

Ərazi ilk partiya təşkilatının sədri Gülnarə Cəfərova yığıncağı giriş sözü ilə açaraq, hesabat məruzəsi ilə çıxış edib. Yığıncaqda çıxış edən ərazi ilk partiya təşkilatının üzvləri Vüsalə Hüseynova, Mətləb Bayramov hesabat məruzəsinin qənaətbəxş olduğunu bildirib. Çıxışlardan sonra təşkilati məsələlərə baxılıb. Qərara əsasən, 5 nəfərdən ibarət idarə heyəti, Gülnarə Cəfərova sədr, Şəfəq Mustafayeva sədr müavini və YAP Binəqədi rayon təşkilatının IX konfransına 1 nəfər nümayəndə seçilib.

Yeni Azərbaycan Partiyası Binəqədi rayon təşkilatının sədri Ramiz Göyüşov ərazi ilk partiya təşkilatının fəaliyyəti barədə danışaraq, hesabatı qənaətbəxş hesab edib. Yeni seçilmiş sədr və sədr müavinini təbrik edərək, onlara işlərində uğurlar arzulayıb.

***ZÜMRÜD***

# Suraxanıda Xocalı faciəsinin 25-ci ildönümü geniş qeyd edilir



"Xocalı Soyqırımının iyirmi beşinci ildönümü haqqında" Azərbaycan Respublikası Prezidentinin 24 yanvar 2017-ci il tarixli, "Xocalı Soyqırımının iyirmi beşinci ildönümünün keçirilməsinə dair tədbirlər planının təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin Administrasiyası rəhbərinin 24 yanvar 2017-ci il tarixli Sərəncamlarının icrasını təmin etmək məqsədi ilə Suraxanı rayon icra hakimiyyətinin təşkilatçılığı ilə rayonun idarə və müəssisələrində silsilə tədbirlər keçirilir.

Rayon icra hakimiyyətinin təşkilatçılığı ilə növbəti tədbir rayonun səhiyyə işçilərinin iştirakı ilə 13 nömrəli Birləşmiş Şəhər



Xəstəxanasında təşkil olunub.

Tədbiri giriş sözü ilə açan 13 nömrəli Birləşmiş Şəhər Xəstəxanasın baş həkimi Zümrüd Abdullayeva bildirib ki, Xocalı Soyqırımı XX əsrin ən böyük faciələrindən biridir.

Tədbirdə çıxış edən rayon icra hakimiyyəti başçısının müavini Afət Həsənova qeyd edib ki, tarixin müxtəlif dönəmlərində ermənilər tərəfindən soyqırımına məruz qalan Azərbaycan xalqı növbəti belə faciə ilə 1992-ci ilin qışında Xocalıda üzləşdi. XX əsrin sonunda ermənilərin Xocalıda törətdikləri soyqırımı bütün insanlığa və bəşəriyyətə qarşı yönəldilmiş ən ağır cinayətlərdən biri kimi qiymətləndirilir.

Afət Həsənova bildirib ki, yalnız Azərbaycan xalqının Ümummilli Lideri, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Xocalı soyqırımı özünün əsl siyasi-hüquqi qiymətini aldı, soyqırımı haqqında həqiqətlərin dünya dövlətlərinə və beynəlxalq ictimaiyyətə çatdırılması üçün təsirli tədbirlər görüldü. Tədbirdə Xocalı sakini Qədim Abbasov, 8 nömrəli Birləşmiş Uşaq Xəstəxanasının şöbə müdiri Ədilə Abbasova çıxış edib. Sonda tədbir iştirakçıları 114 nömrəli tam orta məktəbin şagirdlərinin hazırladığı ədəbi-bədii kompozisiyaya baxıblar.

**ZÜMRÜD**

# "Xocalı Soyqırımı, insanlıq əleyhinə cinayətlər və terrorizm"

*Türkiyədə bu mövzuda Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunmuş Beynəlxalq Konfrans keçirilib*



Dünən Türkiyənin paytaxtı Ankara şəhərində Xocalı Soyqırımının 25-ci ildönümünə həsr olunmuş "Xocalı soyqırımı, insanlıq əleyhinə cinayətlər və terrorizm" adlı Beynəlxalq Konfrans öz işinə başlayıb.

Konfrans Türk Şurası və Hoca Ahmet Yesevi Beynəlxalq Türk-Qazax Universiteti tərəfindən təşkil olunub.

Təhsil Nazirliyinin məlumatına görə, açılış mərasimində Türkiyə Böyük Millət Məclisinin sədr müavini Ahmet Aydın, Azərbaycan Respublikasının xarici işlər naziri Elmar Məmmədyarov, Türkiyə Respublikasının xarici işlər naziri Mevlüt Çavuşoğlu, Azərbaycan Respublikasının təhsil naziri Mikayıl Cabbarov, Türk Şurasının Baş katibi Ramil Həsənov, Hoca Ahmet Yesevi Beynəlxalq Türk-Qazax Universitetinin Qəyyumlar Şurasının sədri Musa Yıldız çıxış edib.

Mikayıl Cabbarov çıxışı zamanı Xocalıda ermənilər tərəfindən törədilmiş kütləvi qırğın, Azərbaycana qarşı həyata keçirilmiş cinayət və təcavüz, onun nəticələri haqqında məlumat verib, bu soyqırımının xalqımıza qarşı aparılan təcavüz, işğal və etnik təmizləmə siyasətinin aydın nümayişi olduğunu vurğulayıb.

**NƏZAKƏT**

# Azərbaycanın Almaniyadakı Səfirliyində Avropa İttifaqının komissarı Qünter Öttinqerlə görüş keçirilib




Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasındakı səfirliyində səfir Ramin Həsənov ilə Avropa Komissiyasının büdcə və insan resursları üzrə komissarı Qünter Öttinqer arasında görüş keçirilib. Diplomatik mənbədən "SƏS"ə daxil olan məlumata görə, görüşdə Azərbaycan və Avropa İttifaqının qurumları, eləcə də, Azərbaycan və Almaniya arasındakı ikitərəfli əməkdaşlığın hazırkı durumu və gələcək perspektivləri barədə fikir mübadiləsi aparılıb.

Azərbaycan ilə Almaniya arasında diplomatik münasibətlərin qurulmasının 25-ci ildönümü hər iki tərəfdən məmnunluqla qeyd edilib. Eyni zamanda, Azərbaycanda alman məskənlərinin salınmasının 200 illiyi məsələsinə toxunulub və ölkəmizdə hökm sürən multikultural həyat tərzi və tolerantlıq mühiti xüsusi vurğulanıb.

Görüşdə, həmçinin, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi ilə bağlı aparılan danışıqların hazırkı vəziyyəti, "Cənub Qaz Dəhlizi"nin Avropa İttifaqının enerji təhlükəsizliyində oynadığı rol, Mədən Hasilatı üzrə Şəffaflıq Təşəbbüsü çərçivəsində ölkəmiz tərəfindən müvafiq fəaliyyətlərin icrası, rəqəmsal iqtisadiyyat və bu sahədə həyata keçiriləcək birgə layihələr müzakirə olunub.

**Rövşən NURƏDDİNOĞLU**

# Braziliyada "Xocalıya ədalət" çağırışı

*Beynəlxalq kampaniyaya start verilib*



Azərbaycanın Braziliya Federativ Respublikasınakı səfirliyi tərəfindən, səfirliyin binasında "Xocalıya ədalət" beynəlxalq kampaniyası çərçivəsində hazırlanmış, bu soyqırımı hadisələrə həsr olunmuş fotosərgi təşkil edilib. Səfirliyin mətbuat xidmətindən SİA-ya daxil olan məlumata görə, kampaniya çərçivəsində, həmçinin, Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə aid müxtəlif dillərdə dərc olunmuş kitab sərgisi də təşkil olunub. Tədbirdə Braziliya ictimaiyyətinin tanınmış şəxsləri, o cümlədən, parlamentin aşağı və yuxarı palatalarının nümayəndələri, yerli diplomatik korpusun üzvləri və müxtəlif universitetlərdən müəllim və professor heyəti iştirak edib. Qonaqlara "Xocalıya ədalət" kampaniyası çərçivəsində bir sıra səfirliklərimizin dəstəyi ilə hazırlanmış videoçarx nümayiş etdirildi və portuqal dilində tərtib edilmiş bukletlər paylanılıb.Tədbiri giriş nitqi ilə açan səfir Elxan Poluxov Xocalı faciəsi, "Xocalıya ədalət" beynəlxalq kampaniyası və Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında ətraflı məlumat verib. O, Leyla xanım Əliyeva tərəfindən 2008-ci ildə başlanan bu kampaniyanın bütün dünyada böyük uğurla həyata keçirildiyini bildirib. Səfir xanım Leyla Əliyevanın təşəbbüsü ilə Xocalı soyqırımının bir çox ölkələr tərəfindən tanındığını və tanınmaqda davam etdiyini tədbir iştirakçılarının diqqətinə çatdırıb.

Sonra səfir dünyada hələ də ikili standartların mövcud olduğunu dilə gətirərək, Xocalı soyqırımının təşkilatçılarının məsuliyyətə cəlb edilməsinə, eyni zamanda, dünyada belə dəhşətli hadisələrin təkrar edilməsinə yol verilməməsinə çağırıb.

**R. RƏSULOV**

# Rəsul Quliyevin “kassir”i “İŞİD”-ə qoşulub- ŞOK FAKTLAR!

## *“ADP-ni vaxtilə maliyyələşdirən şəxs “Əbu Hafiz Azəri” ləqəbli terrorçudur”*

***ABŞ-da yaşayan, ötən əsrin 90-cı illərində Azərbaycanı ən ağır duruma salan şəxslərdən biri, dövlətin pulunu mənsimsəyib özünə Qərb dövlətlərində böyük biznes şəbəkələri quran eks-spiker Rəsul Quliyev haqqında sensasion məlumatlar yayılıb. Daim terrorçu qruplaşmaları, radikal təşkilatları pisləyən R.Quliyevin, digər məsələlərdə olduğu kimi, bu məsələlərdə də qeyri-səmimi olduğu məlum olub.***

Ola bilməzdi ki, AXCP sədri Ə.Kərimlinin Avropada yaşayan doğma əmisi oğlu İnqilab Kərimovla R.Quliyevin dostluğu daha çox milli maraqlar üzərində qurulsun. Diqqət edin! İ.Kərimovla R.Quliyev yaxın dostdurlar, İ.Kərimov isə, bir müddət öncə, sosial şəbəkələrdə “Azərbaycana xoş gəldin, “İŞİD!” yazaraq terrorçu qruplaşmanı ölkəmizə çağırırdı.

Bu gün isə sensasion məlumatlar ortaya çıxır. 2014-cü ildə İraqda öldürülən, daha sonra isə sosial şəbəkələrdə yayılan fotoları ilə hər kəsi heyrətləndirən 18 yaşlı terrorçu Həmzə Azəri (Hamzat Laro) ləqəbli Həmzə Əliyevin özü və ailəsi haqqında sensasion məlumatlar yayılıb. Məlumatlarda terrorçunun ailəlikcə “İŞİD”-ə qoşulması, onların ayrı-ayrı olkələrdəki fəaliyyətləri barədə informasiyalar əks olunur. Məlum olur ki, H.Azəri “İŞİD”-çilər arasında “Əbu Hafiz Azəri” ləqəbi ilə tanınan İntiqam Əliyevin doğma oğludur. Araşdırma zamanı, həmçinin, indiyə qədər bir neçə dəfə ölüm xəbəri yayılan İ.Əliyevin kifayət qədər əlaqəli, imkanlı və məşhur adam olduğu ortaya çıxır. Azərbaycanda, Gürcüstanda, Türkiyədə və Ukraynada biznes fəaliyyəti quraraq, avtomobil ehtiyat hissələrinin satış şəbəkəsi yaradan İntiqam Abuzər oğlu Əliyev, eyni zamanda, siyasi fəaliyyətlə də məşğul olub. O özü ilə bağlı verdiyi anket məlumatlarında vaxtilə R.Quliyevin sədrlik etdiyi Azərbaycan Demokratik Partiyasında aparıcı simalardan olduğunu və təşkilatın maliyyələşməsinə dəfələrlə dəstək göstərdiyini qeyd edib. O, Azərbaycanı da, məhz müxalifətçi adı ilə tərk edib. O, ölkədən getdikdən sonra bir neçə il heç kimin bilmədiyi yerlərdə yaşayıb və həmin müddətdə onunla bağlı heç bir informasiyaya rast gəlinmir.

**“Rəsul Quliyev ölkədə xaos yaratmaq üçün təkcə terrorçularla deyil, terroru himayə edən müxtəlif dairələrlə, elə Ermənistan xüsusi xidmət orqanları ilə də əlbir işləyirdi”**

2001-ci ildən sonra isə İ.Əliyevin İstanbulda olduğu məlum olur. O, ikinci dəfə Rusiya vətəndaşı olan çeçen xanımla ailə qurub. Bu ailədən isə onun 4 qızı doğulub. İ.Əliyevin İraqla əlaqələrinin, terrorçu qruplaşmalarla isti münasibətinin nə vaxtdan formalaşması isə bəlli deyil. Məlum olan odur ki, o, əvvəlcə oğlanları-Nihad və



Həmzə Əliyevlərə saxta yollarla Ukrayna vətəndaşlığı alıb. Bundan sonra özü, həyat yoldaşları və digər uşaqları ilə “İŞİD”-in məşhur əmirləri olan Əbu Ömər Şişanı və Əbu Cihada qoşularaq Suriyaya gedib. Onun 1991-ci il təvəllüdlü böyük oğlu Nihad Əliyev 1 il əvvəl terrora dəstək verən şəxs kimi Ukrayna hüquq-mühafizə orqanları tərəfindən həbs edilib və o hazırda Xarkov şəhərində istintaq altındadır.

Təhlükəsizlik məsələləri üzrə ekspert Mustafa Əliyev qəzetimizə açıqlamasında məsələyə münasibət bildirib. O, qeyd edib ki, ADP-də R.Quliyevin sədrliyi dönəmində bu cür halların baş verməsi tamamilə mümkün idi: “Yadınızdadırsa, 2005-ci ildə R.Quliyev ölkədə xaos yaratmaq üçün təkcə terrorçularla deyil, terroru himayə edən müxtəlif dairələrlə, elə Ermənistan xüsusi xidmət orqanları ilə də əlbir işləyirdi. Ancaq onun Bakıya gəlmək niyyəti baş tutmadı, çiynində hansı məsuliyyətin olduğunu çox gözəl bilirdi. Maraqlıdır ki, “Əbu Hafiz Azəri” ləqəbli İ.Əliyev özünün vaxtilə Azərbaycan Demokratik Partiyasında aparıcı simalarından biri olduğunu və təşkilatın maliyyələşməsinə dəfələrlə dəstək göstərdiyini deyir. Baxmayaraq ki, bu gün Sərdar Cəlaloğlunun sədrlik etdiyi ADP onu tanımadığını deyir. İstənilən halda, R.Quliyevin sədrliyi dönəmində sonradan terrorçulara qoşulan şəxsin hansısa formada əldə etdiyi vəsaitlərin partiyaya sərf olunmasına inanıram. Burda təəccüblü heç nə yoxdur. Söhbət R.Quliyev kimi anti-milli şəxsdən gedir, bunu nəzərə almaq lazımdır”.

**SAMİR**

# Uğursuz müxalifətin uğursuz təməli

## *Rəsul Quliyevin ittihamları səngimir*

***Hazırda ABŞ-da müahcirət həyatı yaşayan eks-spiker Rəsul Quliyev son günlər yenidən aktivlik göstərərək, müxalifətdə baş verən uğrusuzluqlar barədə öz “facebook” səhifəsində ekspert rəyi bildirməkdədir. Zaman-zaman, xüsusilə, seçkilər dövründə ənənəvi düşərgni “asıb-kəsən” R.Quliyev uğursuzluq faktorlarını müxalifətin təməlinin düzgün qoyulmaması və digər amillərlə əlaqələndirir. Ən çox da bu fikirlərin AXCP və Müsavata ünvanlandığı üçün eks-spikerin bu aqressivliyini xəyanət kimi qiymətləndiriblər.***

**“Müxalifəti Əbülfəz Elçibəy birləşdirmək istəsə də, mümkün olmadı”**

Bəllidir ki, R.Quliyev vaxtilə eyni düşərgədə təmsil olunduğu liderləri daha kəskin ittiham atəşinə tutur. Xüsusilə də, müxalifətin yaratdığı birliklərlə bağlı olan fikrinin dağıdılması işində onun adının çəkilməsini ciddi yanaşma saymadığını bildirib: Eks-spiker bildirib ki, müxalifətdə “başbilənlik” edənlərin səviyyəsi, dediyimiz kimi, düşüncələrinin aşağı səviyyədə olmasındadır: “Təməli uğursuz qoyulan müxalifətin bundan sonra da yaradacaqları birliklərin ehtimalı sıfıra yaxındır”. Eks-spiker “Milli Şura”nın yaranmasını, daha sonra isə dağılmasını buna misal olaraq çəkib: “Azərbaycan müxalifəti 2005-ci il parlament seçkilərindən sonra yenilənməli idi. 10 ildən sonra yenilənə bilməyibsə, gedib məzarda yatsınlar. Çünki bu gün müxalifət yoxdur, müxalifət imitasiyası yaradan bir neçə qəzet və ya internet səhifəsi var”.

Eks-spikerə sonda maraqdoğurucu sual edib ki, nəyə görə müxalifət liderləri öz yerlərini başqalarına vermək istəmir, düşərgənin yeniləşməsi üçün addım atmırlar. R.Quliyev qeyd edib ki, bu adamlar özlərini o qədər “liderlik” məsələsinə təslim ediblər ki, həyatlarında başqa sənət öyrənməyi unudublar: “Uğursuz müxalifət liderləri həyatda məşğul ola biləcəkləri heç bir sənət qazana bilmədikləri üçün yerlərini başqalarına vermək istəmirlər.”

Beləliklə, müxalifət düşərgəsində baş verən ziddiyyətli proeselər göstərir ki, müxalifətin birləşməsi, ortaya hər hansı bir yeniliklə çıxa bilməsi qeyri-mümkündür. Göründüyü kimi, bu etirafın özləri trəfindən önə sürülməsi isə kifayət qədər maraqlı və düşündürücüdür.

**Rəfiqə HÜSEYNOVA**

# “Milli Şura”nın xaricdən maliyyə yardımı aldığı təsdiqini tapdı

***Siyasi arenada baş verən proseslərə əsasən, demək olar ki, “Milli Şura” daxilində yenidən konfliktlər yaranıb. Bunu maliyyə mənbələrini əldə etmək uğrunda Cəmil Həsənli ilə Əli Kərimli arasında qarşıdurmanın nəticəsi kimi qiymətləndirirlər.***

“Yurddaş” partiyasının sədri Mais Səfərli “SƏS” qəzetinə açıqlamasında bildirdi ki, “Milli Şura” daxilində qarşıdurmaların olması gözlənilən: “Siyasi partiyaların xarici ölkələr tərəfindən maliyyələşdirilməsi Azərbaycan qanunlarına ziddir. Əlbəttə, müxalif partiyaların xaricdə olan bəzi qüvvələr tərəfindən maliyyələşməsi heç də yaxşı hal deyil. Çünki müxalifət partiyaları həmin xarici qüvvələrin təsiri altına düşərək, onların tələblərini yerinə yetirmək məcburiyyətində qalırlar. Xarici qüvvələrin istəkləri Azərbaycan dövlətinin əldə etdiyi uğurlara kölgə salmaqdır. Bunun üçün də müxalifət düşərgəsində olan bəzi qüvvələrdən istifadə edərək, ölkəmizdə nə isə bir qarışıqlıq salmaq məqsədi güdürlər. Amma onların bu niyyətləri heç vaxt reallaşmayıb və reallaşmayacaqdır. Ümumiyyətlə, hər zaman müxalifət daxilində maliyyə məsələlərinin həlli ilə bağlı problemlər yaranıb. Ona görə də, həmin qurumlarda bu cür konfliktlər yaranır və yaranacaq. Yəni bu maliyyənin daha çox kimə yönəldilməsi ilə bağlı mübarizə aparırlar”.



“Deməli, Ə.Kərimlinin apardığı yarıtmaz siyasət daha çox milli maraqlarımıza qarşı yönəlib” sualına cavab olaraq, partiya sədri bildirdi ki, bu gün “Milli Şura” adlanan qurumda toplaşan qüvvələrin fəaliyyəti heç də Azərbaycanın milli maraqlarına uyğun deyil: “Ümumiyyətlə, müxalifət düşərgəsini təmsil edən qüvvələrin bu cür yersiz hərəkətlərə əl atmaları heç də onlara başucalığı gətirməyəcək. Əksinə, onları daha da gözdən salacaqdır. Yaxşı olardı ki, həmin şəxslər belə əməllərindən əl çəksinlər. Çünki onlar hər zaman öz şəxsi ambisiyalarına uyğun iş görüblər. Məhz ona görə də, müxalifətin var olub-olmaması xalq üçün maraqlı deyil. Bir sözlə, xalq tərəfindən müxalifətin heç bir siyasi dəstəyi yoxdur”.

“Nəyə görə, bu gün Ə.Kərimli AXCP-nin adından deyil, daha çox “Milli Şura”nın adından çıxışlar edir” sualına cavab olaraq, M.Səfərli qeyd etdi ki, onlar belə bir təəssürat yaratmaq istəyirlər ki, guya “Milli Şura” böyük bir təşkilatdır: “Amma əslində, nə “Milli Şura”nın, nə də AXCP-nin, cəmiyyət tərəfindən heç bir dəstəyi yoxdur. Bir sözlə, onlar cəmiyyətin dəstəyindən çoxdan məhrum olublar. Sadəcə olaraq, özlərini bir növ xarici qüvvələrə reklam etməkdən ötrü bu cür hərəkətlər edirlər. Partiya sədri, onu da bildirdi ki, müxalifət düşərgəsində təmsil olunan partiya sədrlərinin düzgün siyasət qurmamalarının əsaslarıdır ki, bu gün həmin müxalifət düşərgəsində vəziyyət gərginlik içərisindədir. Müxalifət düşdüyü gərgin vəziyyətdən çıxış yolunu axtarsa da, tapa bilmir. Bu gün bu uğursuz siyasət də özünü açıq şəkildə büruzə verir. Ümumiyyətlə, müxalifət qüvvələri bir-birini qəbul etmək istəmirlər. Bu da müxalifət liderlərinin şəxsi ambisiyalarının olmasından irəli gəlir. Hesab edirəm ki, qarşıdurmalar müxalifət partiyalarında yeni qopmaların baş verməsinə gətirib çıxaracaq”.

**GÜLYANƏ**

# AXCP-də "Azadlıq" üstündə dava qızışıb

## Əli Kərimli-Qənimət Zahid davası "şişir"



***3 il bundan öncə ölkəni tərk edib Fransaya mühacirət edən və Avropada Azərbaycan əleyhinə kampaniyalarda iştirak edən, bu istiqamətdə erməni lobbisinin buraxdığı sərmayələr hesabına fəaliyyət göstərən "Azadlıq" qəzetinin baş redaktoru Qənimət Zahidin AXCP sədri Ə.Kərimli ilə davası "şişməkdə" davam edir. Məsələnin mahiyyəti barədə mediada məlumatlar getsə də, xatırlatmaq yerinə düşərdi ki, "Azadlıq" qəzetinin əsas rıçaqları, yəni fəaliyyət kursunun müəyyənləşdirilməsi, bilavasitə Ə.Kərimlinin əlindədir. Yəni Q.Zahid, faktiki olaraq, "Azadlıq" qəzetinə, o cümlədən, elektron versiyasına rəhbərlik etmir və bu mətbu orqan birbaşa AXCP sədrinin səlahiyyətinə keçib.***

### Sorosa bağlı olan donor təşkilatın Əli Kərimlini heçə sayaraq, Qənimət Zahidi əsas fiqur kimi nəzərə alması isə AXCP sədrini hiddətləndirib

Sözügedən məsələnin mahiyyətini daha dərindən anlamaq üçün bir neçə xatırlatmanı etmək yenə də yerinə düşərdi. Məlumat üçün bildirək ki, Corc Sorosa bağlı donor təşkilatlardan biri layihə çərçivəsində "Azadlıq" qəzetinə 175 min avro qrant ayırıb. Bu pulu Azərbaycana birbaşa çatdırmaq imkanı olmayan təşkilat həmin vəsaiti hazırda Fransada yaşayan Q.Zahidə ötürüb.

Sorosa bağlı olan donor təşkilatın Ə.Kərimlini heçə sayaraq, Q.Zahidi əsas fiqur kimi nəzərə alması isə AXCP sədrini hiddətləndirib. Çünki Q.Zahid pulu götürdükdən sonra Ə.Kərimliyə düşən payı ona çatdırmayıb, əvəzində isə, yeni "layihəyə" başladığını bildirib. Q.Zahid iddiasına səbəb də tapıb. O, son zamanlar "Azadlıq" qəzetinin çapının bərpa olunmamasından narahatlığını və qəzetin saytının informasiya siyasətindən narazı olduğunu bildirib.

### Qənimət Zahid Əli Kərimlinin minnət elçisi Rahim Hacıyevi polis gələnə qədər döyüb?

Söz yox ki, Q.Zahidin iddiaları Ə.Kərimlini özündən çıxardıb və 175 min avronu (?!-R.N.) geri almaq üçün "Azadlıq" qəzetinin baş redaktorunun birinci müavini Rahim Hacıyevi, eləcə də, digər bir neçə cəbhəçini Q.Zahidin yanına - Fransaya minnətə göndərib. Məhz bundan sonra tərəflər arasında qarşıdurma daha da şiddətlənib. Məlumata görə, vəziyyət o həddə çatıb ki, R.Hacıyevlə Q.Zahid pul üstündə əlbəyaxa olublar və birbirilərini möhkəm əzişdirməyə macal tapıblar. Əlbəttə ki, Fransa polisinin müdaxiləsinə qədər. Q.Zahid Ə.Kərimlinin minnət elçisinə deyib ki, aldığı pulu AXCP sədrinə verməyəcək. Çünki o, bu pulu "Azadlıq" qəzetinə deyil, özünün və partiyanın xərclərinə sərf etmək niyyətindədir və beləliklə, həmin dava bu gün də tam süratilə davam etməkdədir.

Ümumiyyətlə, mövcud vəziyyətə nəzər salarkən, zaman-zaman Ə.Kərimlinin AXCP-də bu kimi məsələlərin, xüsusilə, pul üstündə baş verən dava-dalaşların kifayət qədər olduğunu xatırlaya bilərik.

### Pula olan maraq onlar üçün ailə bağlarından da önəmlidir

Hətta pul amili cəbhəçilər üçün o qədər önəmli və əhəmiyyətlidir ki, bu məsələdə ailələrinə belə heç bir güzəştə getmirlər. Buna misal kimi, daha bir bənzər hadisəni xatırlaya bilərik. Belə ki, burada da Q.Zahidin və Ə.Kərimlinin adlarının hallanmasından yan keçilməyəcək.

Q.Zahidin doğma qardaşı, hazırda Belçikada mühacir həyatı yaşayan Mirzə Zahidov (Sakit təxəllüsü ilə-R.N.) "Azadlıq" qəzetində fəaliyyət göstərdiyi vaxtlar AXCP-yə axan pullardan xəbərdar olub və qardaşı Q.Zahidin eyş-işrətlə məşğul olması, mənəviyyatsız və əhli-kef həyat sürməsi onu hiddətləndirib. Çünki həmin vaxtlar "Azadlıq"da çalışan əməkdaşların maaşları ya verilmirdi, ya da zəhmət haqları qəpik-quruşla ödənilirdi. Əvəzində, Ə.Kərimli də partiyaya və qəzetə ünvanlanan pulları bir hissəsini şəxsi məqsədlərinə xərcləyirdi, hətta qəzetin borclarını belə ödəməkdən yayınırdı.

Məhz bundan sonra M.Sakit qardaşı ilə dalaşaraq qəzetdən çıxıb, bu gün də onların arasında heç bir münasibətləri yoxdur. Yəni görünən budur ki, həmin vəziyyət bu gün də eyni şəkildə davam etməkdədir.

Artıq belə qənaətə gəlmək olar ki, "Azadlıq" üstündə baş verən dava-qırğınların nəticəsi bu qəzetin fəaliyyətinin dayanması ilə yanaşı, həm də AXCP-də vəziyyətin hansı həddə olduğunun göstəricisidir. Əgər bu gün istər Ə.Kərimli ölkədə və xaricdə baş verənlərə hər hansı münasibət göstərirsə, onun bir siyasətçi kimi ictimai rəydə maraqlı olması heç də inandırıcı görünmür. O cümlədən, əhli-kef Q.Zahid də onun kimi. Ortada olan faktlar da, məhz belə qənaətə gəlməyə kifayət qədər zəmin yaratmaqdadır.

**Rövşən NURƏDDİNOĞLU**

---

# Oqtay Gülalıyev kimləri və necə müdafiə edir?

***Özünü "hüquq müdafiəçi"si kimi təqdim edən Oqtay Gülalıyev yeni "taktika" seçib. Belə ki, onun "Gənclik" metrosunun yaxınlığında yerləşən ofisi, sözün həqiqi mənasında, rüşvət yuvasına çevrilib. Törətdiyi əməldə cinayət tərkibi olan hansısa müxalifətçi həbs olunursa, O.Gülalıyevin "düşüncə"sinə görə, həmin müxalifətçi qanun qarşısında heç bir məsuliyyət daşımamalıdır. Mətləbə keçək!***

Ötən ilin iyun ayının 30-da Bakının Xətayi rayonunda yerləşən restoranlardan birinin sahibindən hədə-qorxu yolu ilə dəfələrlə pul alan F.Fərəməzoğlu növbəti dəfə 3 min manat alarkən həbs edilmişdi. Həmin F.Fərəməzoğlu ki, uzun müddət Ə.Kərimlinin rəhbərlik etdiyi AXCP-nin üzvü olub, lakin sonradan bu partiya ilə yollarını ayırıb. Onun Ə.Kərimli ilə dalaşıb, AXCP-dən qovulduğu da vurğulanırdı. Heç şübhəsiz ki, F.Fərəməzoğlunun həbsi, eləcə də, onun "müdafiə"si ilə bağlı 2016-ci ilin sonuna qədər AXCP-dən heç bir səs çıxmadı. Bu ilin əvvəlində isə "Azadlıq.info"da F.Fərəməzoğlu haqqında ara-sıra məlumatlar dərc olunmağa başladı. Necə deyərlər, Ə.Kərimli vaxtilə yaramaz adlandırdığı F.Fərəməzoğlunu "müdafiə" etməyə başladı. Daha dəqiq desək, F.Fərəməzoğlunun ailəsinin əlindəki pulu əldə etmək istəyən O.Gülalıyev birtəhər Ə.Kərimlini razı salaraq, onu "müdafiə" etməyi, hətta bu istiqamətdə "komitə" yaratmağı da məsləhət gördü.



Yaradılan "müdafiə komitə"sində dəyirmi masanın ətrafında kimləri gördük? Eldəniz Quliyevdən tutmuş rüşvət və korrupsiyaya bulaşaraq işdən qovulan "demokrat"lara qədər hamısı masanın ətrafında dövrə vururdular. O.Gülalıyev F.Fərəməzoğlunun azad olunacağına tam "əmin"lik yaratmaq üçün müxtəlif adamları başına yığıb. Başa düşmək lazımdır ki, O.Gülalıyev kimilərə bu tip məsələlərdən istifadə edərkən, cəmi iki şey maraqlıdır. Birincisi, yaxşı pul əldə etmək. İkincisi, Ə.Kərimlinin göstərişi ilə dövlət, hakimiyyət əleyhinə saxta kompromatlar düzəltmək, xarici xüsusi xidmət orqanlarına, ermənipərəst qüvvələrə "donos" kimi ötürmək, bəzi təşkilatların hesabatlarında ölkəmiz haqqında hədyanlar yağdırmaq.

### Elçin İsmayıllının "yoxa çıxma"sı haqqında məlumatlar yayan O.Gülalıyevin yalanı cəmi bir neçə saat sonra üzə çıxdı

O.Gülalıyev iki gün bundan öncə İsmayıllıda yaşayan jurnalist, cəbhəçilərin AXCP ali məclisinin üzvü kimi təqdim etdikləri Elçin İsmayıllının "yoxa çıxma"sı ilə bağlı gülünc bir iddia ortaya atıb. Axı unutmaq olmaz ki, bu adamlar heç olması ayda bir dəfə hansısa "şura"çının "yoxa çıxma"sı ilə bağlı məlumatlar yayırlar, sosial şəbəkələrdə özlərinin səhifələrində provokativ materiallar paylaşırlar. Əksər hallarda, özlərini gülüş obyektinə çevirirlər. Çünki cəmi bir neçə saatdan sonra ortaya çıxan "şura"çı sağ-salamat olduğunu bildirir. Bu hal da olub ki, bəzi cəbhəçiləri rayonlarda gizlədib guya onların polislər tərəfindən oğurlandıqları barədə məlumatlar yayırlar. O.Gülalıyevin yalanı cəmi bir neçə saat sonra üzə çıxdı. Belə ki, E.İsmayıllının vəkili İslam İsmayılov bildirib ki, o, rüşvət alarkən, hüquq-mühafizə orqanları tərəfindən həbs edilib: "Fevralın 17-də İsmayıllıda yaşayan müstəqil jurnalist Elçin İsmayıllı həbs olunub. Onun haqqında Cinayət Məcəlləsinin 182-ci (hədə-qorxu yoluyla pul tələb etmə) və 308-ci (vəzifəsindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb. İstintaq materiallarında göstərilir ki, Elçin İsmayıllı rayon mədəniyyət və turizm şöbəsinin bir əməkdaşı haqqında məlumat yayacağı ilə şantaj edərək, ondan pul tələb edib. O, 1000 manat pul alarkən, həbs olunub". E.İsmayıllı bundan əvvəldə də şantaj xarakterli hərəkətlərinə görə, dəfələrlə xəbərdarlıq alıb.

**SAMİR**

---

# Ermənistana "sığınan" vətən xaini müsavatçının atası kimləri ittiham etdi?

## "Oğlum müxalifət partiyalarının təhriki ilə belə bir addım atıb"

Bir müddət öncə işğalçı Ermənistandan "sığınacaq" alan müsavatçı, "Milli Şura"nın üzvü Şahin Mirzəyev hazırda ölkəmizə qarşı erməni xüsusi xidmət orqanlarının "şparqalka"ları əsasında dövlətimiz əleyhinə hədyanlar yağdırır. Ş.Mirzəyevin atası oğlunun xəyanətkar addımına görə, özünə ölüm arzuladığını bildirib.



92 yaşlı Sayil Niyaz oğlu Mirzəyev qeyd edib ki, oğlunu qara qüvvələr ələ keçiriblər. Həmin qara qüvvələr müxalifət partiyalarıdır: "Mən dövlətdən kömək istəyirəm ki, bunların qarşısı alınsın. Oğlum onların təhriki ilə belə bir addım atıb. Şahin həmişə onların təsiri altında olub. Şahin deyir ki, guya Azərbaycanda talışlar təzyiqlərə məruz qalır. Onun dedikləri boş söhbətlərdir. Biz indiyə qədər təzyiq görməmişik, heç kəs də bizə təzyiq etməyib. Mən 65 il müəllim işləmişəm. Mənim onunla münasibətim olmayıb, onun hərəkətlərindən xoşum gəlməyib heç vaxt. Onun Bakıdan "xəstəlik" adı ilə Gürcüstana getdiyini bilirdim. Gürcüstana gedib, ordan da Ermənistana keçib".

"Milli Şura"dan və Müsavatdan Ş.Mirzəyevin atasının ittihamlarına münasibət öyrənə bilmədik. Bir neçə gün öncə Müsavat başqanı A.Hacılı Ş.Mirzəyevin müsavatçı olmadığını iddia etsə də, faktlar isə başqa söz deyir. Belə ki, Ş.Mirzəyevin Müsavatın və "Milli Şura"nın mitinqlərində çəkilmiş fotoları var, bunlar da mətbuatda dərc olunub. Eləcə də, onun Müsavat partiyasının üzvü olduğunu təsdiqləyən partiya bletinin də surəti ortaya çıxıb. A.Hacılı, bəs bu, necə olur? Tutaq ki, mitinqlərinizdə iştirak etməyib və o fotolar yalandır. Bəs üzvlük vəsiqəsi necə? Axı bunu sən verirsən və səndən də əvvəl İ.Qəmbər verirdi. Görünür, partiyanı idarə etmək iqtidarında deyilsiniz.

**S.Feyruzov**

# Davamlı İnkişaf Məqsədlərinin həyata keçirilməsində Milli İnsan Hüquqları İnstitutlarının rolu

***2015-ci ilə qədər ifrat yoxsulluğu yarıbayarı azaltmaqdan HİV/AİDS-in yayılmasını dayandırmağa və ümumi ibtidai təhsilin təhlil edilməsinə kimi hədəfləri əhatə edən Minilliyin İnkişaf Məqsədi (Millenium Development Goals MDG) dünya ölkələri və dünyanın aparıcı təşkilatları arasında razılaşdırılmış fəaliyyət planını təşkil edir.***

"İnsan hüquqlarına dair beynəlxalq əməkdaşlıq" kitabında göstərilir: "Artıq 2015-ci ildə Minilliyin İnkişaf Məqsədləri başa çatır. Ancaq təəssüflə qeyd etmək lazımdır ki, dünya sözügedən məqsədlərə hələ tam olaraq çata bilməmişdir. Bunu BMT-nin "Minilliyin İnkişaf Məqsədləri -2011" adlı hesabatı da təsdiq edir. Belə ki, sözügedən sənəddə deyilir ki, MİM-ə nail olmaq istiqamətində əhəmiyyətli addımlar atılsa da, irəliləyiş əhalinin daha kasıb təbəqəsinə təsir etmədiyinin, 2015-ci ilin sonuna kimi bütün məqsədlərə nail olunması sual altında qalmaqdadır. Ancaq buna baxmayaraq, qarşıya qoyulan məqsədlər çərçivəsində əldə edilən uğurlar da mövcuddur. Belə ki, BMT Baş katibi Pan Gi-Mun tərəfindən təqdim olunan hesabatda qeyd olunur ki, 2000-ci ildə dünya liderlərinin ifrat yoxsulluq, aclıq və savadsızlığı azaltmaq üçün qarşıya qoyduqları məqsədləri həyata keçirməkdə əhəmiyyətli uğur əldə edib. "MİM artıq milyonlarla insanı yoxsulluqdan çıxarmağa, saysız-hesabsız uşaqların həyatını xilas etməyə və onların məktəbə getmələrini təmin etməyə, ana ölümünü azaltmağa, qadınlar üçün imkanları genişləndirməyə, təmiz suya çıxışı artırmağa, ölümcül və əzablı xəstəlikdən bir çox insanları azad etməyə nail olub".

Baş katib, həmçinin, deyib ki, qadınların və qızların hüquqlarının təmin olunması, davamlı inkişafın təbliğ olunması və münaqişələr, yemək və yanacaq qiymətinin dəyişməsi kimi böhranların təsirlərindən daha həssas təbəqənin qorunması üçün görüləcək işlər hələ də qalır. "Məqsədlərinə nail olmaq ədalətli və əhatəli iqtisadi artım tələb edir - bu artım hər kəsə aid olaraq, bütün insanlara, xüsusilə də, yoxsul və təcrid olunmuşlara iqtisadi imkanlarından faydalanmaq imkanı verir" deyə Baş katib bildirib.

Dünya ölkələri MİM üçün müəyyənləşdirilən müddətin bitməsi ilə, artıq yeni Davamlı İnkişaf Məqsədlərinin (Sustainable Devolopment Goals - SDG) həyata keçirilməsi isitiqamətində addımlar atmaqdadır. Onu da qeyd etmək lazımdır ki, 2015-ci ilin sentyabr ayında Amerika Birləşmiş Ştatlarının Nyu-York şəhərində keçirilən BMT-nin Baş Assambleyasının plenar iclasında 17 məqsəd və 169 hədəfi ehtiva edəp Davamlı İnkişal Məqsədləri (DİM) artıq təsdiq olunmuşdur."

2012-ci ildə keçirilmiş Rio+20 Sammitindən bu yana, başa çatmaqda olan Minilliyin İnkişaf Məqsədlərindən sonrakı dövrü əhatə edəcək yeni qlobal inkişaf proqramlarının müəyyənləşdirilməsi milli, regional və beynəlxalq səviyyədə geniş şəkildə müzakirə edilmişdir. Son illərdə dünyada baş verən hərbi münaqişələr və təbii fəlakətlər, təəssüflər olsun ki, bu məqsədlərin yerinə yetirilməsi baxımından ciddi çətinliklər yaratmışdır. Ancaq buna baxmayaraq, BMT-nin aidiyyəti qurumları, üzv dövlətlər və qeyri-hökumət təşkilatları ilə birlikdə insan hüquqları ilə bağlı məsələləri 2015-ci ildən sonra nəzərdə tutulmuş inkişaf proqramına daxil edilməsində böyük səylər göstərmişlər. Bu baxımdan, təklif olunan DİM beynəlxalq inkişaf prioritetlərinə əsaslanmaqdadır.

Adıçəkilən kitabda qeyd edilir ki, belə demək mümkünsə, dünya ictimaiyyəti MİM-dən alan tamamlanmamış məqsədləri də ehtiva edən DİM-i həyata keçirmək istiqamətində ciddi addımlar ataraq ekologiyanı, insanları və həmçinin, bütün canlıları qorumaq hədəfi güdməkdədir. DİM içərisində, heç şübhəsiz ki, insan hüquqlarının səmərəli müdafiəsi məsələsi əhəmiyyətli yer tutmaqdadır. Qeyd olunmalıdır ki, DİM - iqtisadi, sosial və ekologiya olmaqla üç əsas hədəf istiqaməti nəzərdə tutur. Bütün dünya ictimaiyyəti tərəfindən əldə edilən razılığa əsasən, 2015-2030-cu illər ərzində DİM bütün dövlətlər üçün inkişaf strategiyalarının müəyyənləşdirilməsində əsas mənbə olacaqdır. Bu baxımdan, sözügedən məqsədlərin həyata keçirilməsində insan hüquq və azadlıqlarının təmin olunması və bu istiqamətdə, səmərəli işlərin görülməsinin vacibliyi nəzərə alınaraq, Milli İnsan Hüquqları İnstitutlarının da üzərinə mühüm vəzifələr düşür. Sözügedən məqsədlərin tanıdılması və həmçinin, onların həyata keçirilməsində effektiv yolların araşdırılması məqsədilə 2015-ci ilin iyun ayında Avropa İnkişaf Günləri çərçivəsində Avropa Komissiyası və BMT-nin Beynəlxalq Əlaqələndirmə Komitəsinin birgə təşkilatçılığı ilə Belçikanın Brüssel şəhərində MİHİ-lər üçün xüsusi iclasların keçirilməsi həmin məqsədlərin həyata keçirilməsində MİHİ-lərin nə qədər önəmli rola malik olduğunu əyani şəkildə sübut edir. Həmin tədbirdə Azərbaycan Ombudsman Təsisatı da təmsil olunurdu. Dünyanın dörd bir yanından gəlmiş, Milli İnsan Hüquqları İnstitutlarının nümayəndələrinin, beynəlxalq ekspertlərin, vətəndaş cəmiyyəti və medya mənsublarının təmsil olunduğu tədbirdə DİM fonunda görüləcək işlərə dair geniş müzakirələr aparılır, məruzələr dinlənilirdi. Tədbirdə iştirak edən təsisatın nümayəndəsi təşkil olunan sessiyalarda "Milli İnsan Hüquqları İnstitutları, Vətəndaş cəmiyyəti təsisatları və Milli Strategiya" mövzusuna həsr olunmuş işçi qrupunun iclasında çıxış edərək, iştirakçılara Azərbaycan Respublikasının dövlət müstəqilliyini bərpa etdikdən sonra, ölkədə hüququn aliliyi və demokratiyanın tam bərqərar olunması istiqamətində, eyni zamanda, insan huiquq və azadlıqlarının təmini sahəsində aparılan islahatlar barəsində məlumat verir. DİM-in həyata keçirilməsində vətəndaş cəmiyyətinin rolu da əhəmiyyət kəsb etdiyindən MİHİ-lərin bu təşkilatlarla əməkdaşlığına da böyük əhəmiyyət verilməkdədir. Təsisatın qurulduğu ilk günlərdən Ombudsman yanında vətəndaş cəmiyyəti üzvlərindən ibarət Müstəqil Ekspertlər Şurası yaradaraq, onlarla səmərəli əməkdaşlıq əlaqələri quran Müvəkkilin bu fəaliyyəti beynəlxalq arenada müsbət təcrübə kimi qiymətləndirilməkdədir.



Beynəlxalq ictimaiyyətin toplandığı bu mühüm tədbirdə bir sıra ölkələrin MİHİ-lər MİM-in həyata keçirilməsində və eyni zamanda, gələcək DİM-in fonunda, aidiyyəti sahələr üzrə öz təcrübələrini bölüşür, maraqlı fikir mübadiləsi aparırdılar. Burada aparılan əsas müzakirə mövzularından biri də insan hüquqları ilə bağlı milli fəaliyyət planı və strategiyalarının hazırlanması ilə əlaqədar idi. Təsisatın nümayəndəsi həmin sessiyada iştirak edərək, ölkədə insan hüquq və azadlıqlarının müdafiəsi ilə bağlı qəbul edilmiş üç mühüm strateji sənədə diqqət çəkmiş, insan hüquqlarının müdafiəsinə dair ilk Dövlət Proqramı, o cümlədən, "İnsan hüquqları üzrə Milli Fəaliyyət Planı" və onun məntiqi davamı olan Azərbaycan Respublikasında İnsan Hüquq və Azadlıqlarının Müdafiəsinin Səmərəliliyini artırmaq Sahəsində Milli Fəaliyyət Proqramı (MFP) və qeyd olunan sənədlərin hazırlanmasında Azərbaycan Ombudsmanının iştirakı, həmçinin, insan hüquqlarının və azadlıqlarının təmin olunması istiqamətində qəbul edilmiş normativ sənədlər haqqında məlumat vermişdir.

Avropa İnkişaf Günləri çərçivəsində keçirilən sessiyalardan biri də biznes və insan hüquqları mövzusuna həsr olunmuşdu. Onu da qeyd etmək lazımdır ki, biznesin insan hüquqlarının reallaşdırılmasına təsiri, bu hüquqların pozulmasına görə, kommersiya təşkilatlarının məsuliyyəti məsələsi son illər ciddi tədqiqat predmetinə çevrilmişdir. Problemin aktuallığı nəzərə alınaraq, müxtəlif beynəlxalq təşkilatlar, o cümlədən, BMT tərəfindən bu sahədə ciddi iş aparılır. Aparatın əməkdaşı sözügedən iclasda iştirak edərək, Azərbaycan Ombudsmanı bu sahədə gördüyü işlərdən danışmışdır. O, qeyd etmişdir ki, biznes və insan hüquqları sahəsində işin daha səmərəli aparılması məqsədi ilə Ombudsmanın təşəbbüsü ilə "Ombudsman yanında Biznes və İnsan Hüquqları üzrə İşçi Qrup" yaradılmış və bu qrup tərəfindən bir sıra maarifləndirici tədbirlər keçirilmişdir. Ombudsmanın biznes və insan hüquqları sahəsində formalaşdırdığı bu təcrübə, aidiyyəti nazirlik və komitələrdən, QHT və KİV-in təmsilçilərindən ibarət tərkibdə uğurlu fəaliyyəti tədbir iştirakçılarının marağına səbəb olmuşdur. Ümumiyyətlə, son illərdə dünyada sürətlə gedən qloballaşma prosesinin bir nəticəsi olaraq, biznes sahəsindəki inkişaf, təbii olaraq, əməyin mühafizəsi və əmək fəaliyyəti ilə məşğul olan insanların hüquqlarının səmərəli müdafiəsi məsələsi beynəlxalq təşkilatların gündəmində mühüm yer tutmağa başlamışdır.

**VAHİD ÖMƏROV,**
*fəlsəfə üzrə fəlsəfə doktoru*

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu
KİVDF
www.kivdf.gov.az

*Bu yazı Azərbaycan Respublikası Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyi ilə "İnsan hüquq və azadlıqlarının müdafiəsi, vətəndaşların hüquqi, siyasi mədəniyyət səviyyəsinin yüksəldilməsi, sosial və siyasi fəallığının artırılması" istiqaməti çərçivəsində hazırlanıb*

# səs

Son səhifə 23 fevral

## Antropogen faktorların nəticəsi: yüksələn temperatur və əriyən buzlaqlar

ABŞ-ın Kaliforniya Universitetinin alimlərinin araşdırmalarına görə, Kanadanın Arktik buzlaqlarında ərimə son on ildə 9 dəfə artıb. Bu, dənizdə suyun səviyyəsinə əhəmiyyətli dərəcədə təsir edir. AZƏRTAC sciencedaily.com saytına istinadla xəbər verir ki, 2005-ci ildən 2015-ci ilə qədər Kraliça Elizabet adalarında əriyən səth buzlarında 3 geqatondan 30 geqatona qədər artım müşahidə olunub. Əslində 2005-ci ilə qədər buzların əriməsi iki əsas amilin təsirindən qaynaqlanırdı. Əsas səbəb kimi buzlaq cəbhələrindəki aysberqlərin okeanlarda parçalanması üstünlük təşkil edirdi. İkinci amil isə havanın təsirinə məruz qalaraq buzlaqların səthinin əriməsi idi. Lakin getdikcə yüksələn atmosfer temperaturu səthi ərimənin 90 faizini təşkil edir.

## Oynaq xəstəlikləri üçün krem

Artroz, artrit, radikulit və ostexondroz kimi oynaq xəstəliklərində əvvəlki illərlə müqayisədə indi daha çox "cavanlaşma" müşahidə olunur. Həmin xəstəliklər zamanı getdikcə hərəkət məhdudiyyətlərinə görə bel yırtığı, maddələr mübadiləsinin pozulması və gəzmək imkanının məhdudlaşması nəticəsində kürək, boyun və oynaqlarda ağrılar əmələ gəlir. AZƏRTAC Rusiyanın Medinfo saytına istinadən xəbər verir ki, Rusiyada dayaq-hərəkət sistemi hərəkətləri üzrə metodiki-bərpa mərkəzinin rəhbəri, tibb elmləri doktoru, professor Valentin Dikul oynaq xəstəliklərinin fəsadlaşmasının qarşısını almaq üçün yeni krem hazırlayıb. Krem artrit və artrozla, eləcə də bir sıra digər oynaq ağrıları ilə mübarizədə sınaqdan keçirilib. Onun köməyi ilə ağrıların səbəbi aradan qalxır, onurğa sümüyü və oynaqlar əvvəlki vəziyyətinə qayıdır. Kremin tətbiqi xəstəni təkcə ağrılardan xilas etmir, həm də onu tam sağlam həyata qaytarır, orqanizmin bərpa olunmasını və zədələnmiş hüceyrələrin yenilənməsini təmin edir.

## Darçın bir çox xəstəliklərə qarşı kömək edir

Darçın ətirli ədvə olmaqla yanaşı həm də bir çox xəstəliklərə qarşı çox gözəl vasitədir. AZƏRTAC AyZdorov.ru saytına istinadla xəbər verir ki, artıq müasir



tibdə təsdiq edilib ki, darçın müxtəlif xəstəliklər zamanı orqanizmin həyat üçün vacib bir sıra sahələrinə müsbət müalicəvi təsir göstərir, bədənin ümumi tonusunu artırır, immunitetin möhkəmlənməsinə kömək edir. Belə ki, bu ədvə B qrup, C, A, PP vitaminləri, kaliy, kalsiy, maqniy, fosfor, sink, dəmir və müxtəlif efir yağları ilə zəngindir.

Tibdə bu ədvədən antiseptik, eləcə də göbələk və mədə-bağırsaq yolu xəstəlikləri əleyhinə vasitə kimi istifadə olunur. Bundan əlavə, darçın artıq duz və mayeni orqanizmdən çıxarır, öd və qaraciyəri təmizləyir. Sağlamlıqla yanaşı, darçından kosmetoloji vasitə kimi də istifadə olunur. Darçından hazırlanan maskalar saçın daha tez uzanmasına, parlaq və canlı görünməsinə kömək edir. Saçlarda canlandırıcı effekt əldə etmək üçün tərkibində bir çay qaşığı darçın, iki xörək qaşığı bal və iki xörək qaşığı ılıq zeytun yağ olan maskadan istifadə etmək olar. Bu maskanı saçda 45 dəqiqə saxlamaq lazımdır. Saçların həcminin artırılması və saçqıranlardan azad olmaq üçün bir çay qaşığı darçın, bir yumurta, əzilmiş pomidor, bir xörək qaşığı günəbaxan yağı və bir xörək qaşığı bal qarışımından istifadə etmək olar. Bu maska saçda 20 dəqiqə saxlanıb yuyulduqdan sonra limonlu su ilə yaxalanmalıdır. Saçların tez uzanması üçün iki çay qaşığı darçın, bir baş soğan əzməsi, dörd diş əzilmiş sarımsaq və bir qaşıq balın qarışımı çox gözəl nəticə verir. Hazırlanmış bu qarışımı saçların dibinə sürtüb, yarım saat saxladıqdan sonra gicitkən dəmləməsi ilə yaxalamaq lazımdır. Darçından arıqlamaq üçün də istifadə olunur.

## "Atletiko Madrid" "Bayer Leverkuzen"ə, "Mançester Siti" isə "Monako"ya qalib gəlib



**UEFA** Çempionlar Liqasının səkkizdəbir final mərhələsinin daha iki oyunu keçirilib. AZƏRTAC xəbər verir ki, "Bayer Leverkuzen" (Almaniya) "Atletiko Madrid"i (İspaniya), "Mançester Siti" (İngiltərə) isə "Monako"nu (Fransa) qəbul edib. Maraqlı keçən qarşılaşmalarda aşağıdakı nəticələr qeydə alınıb: "Bayer Leverkuzen" - "Atletiko Madrid" 2:4; "Mançester Siti" - "Monako" 5:3.

Bu komandalar arasında cavab qarşılaşmaları martın 14-də oynanılacaq. Xatırladaq ki, ötən həftə keçirilmiş qarşılaşmalarda "Benfika" komandası "Borussiya Dortmund"u 1:0, "Pari-Sen-Jermen" isə "Barselona"nı 4:0, "Bavariya" "Arsenal"ı 5:1, "Real Madrid" isə "Napoli"ni 3:1 məğlubiyyətə uğradıb.

## Azərbaycan idmançısı "Moscow wushu stars-2017" turnirinin qalibi olub



Azərbaycanı və "Qəbələ" idman klubunu beynəlxalq arenada uğurla təmsil edən Pərviz Abdullayev növbəti nailiyyətini əldə edib. AZƏRTAC xəbər verir ki, idmançımız bu dəfə uşu yarışlarında fərqlənib. O, Rusiyanın paytaxtı Moskvada təşkil olunan "Moscow wushu stars-2017" turnirində qüvvəsini sınayıb. Beynəlxalq yarışda 4 döyüş keçirən P.Abdullayev bütün rəqiblərinə qalib gəlib. Yarışda 75 kiloqram çəki dərəcəsində çıxış edən təmsilçimiz bu qələbələr sayəsində Moskvadakı yarışın çempionu adını qazanıb.

## Antuan Qrizmann "Atletiko Madrid"in tarixinə düşüb



"Atletiko"nun futbolçusu Antuan Qrizmann Madrid klubunun tarixinə düşüb. AZƏRTAC xəbər verir ki, fransalı hücumçu "Atletiko"nun Çempionlar Liqasında ən çox qol vuran oyunçusu olub. Çempionlar Liqasının 1/8 mərhələsində "Bayer"lə keçirilən oyunda fərqlənən 25 yaşlı forvard turnirdə 13-cü qolunu vurub. Bununla da o, Luis Araqonesi (12) qabaqlayıb. Qeyd edək ki, Qrizmann cari mövsüm turnirdə 7 oyuna 4 qol vurub.

## Qvardiola: "İstəsələr, bizə milyon qol vurarlar"



"Rəqibin əks-hücumlarının qarşısını almaq çox çətin idi. İstəsələr, bizə milyon qol vurarlar". Qol.az-ın xəbərinə görə, bunu "Mançester Siti"nin baş məşqçisi Pep Qvardiola Çempionlar Liqasının 1/8 finalında "Monako" ilə keçirilən ilk oyundan sonra deyib. İspaniyalı mütəxəssis 5:3 hesabı ilə qalib gəlmələrinə baxmayaraq, komandaların mərhələ adlamaq şansının bərabər olduğunu bildirib: "Cavab matçında daha yaxşı oyun sərgiləməliyik. Ən böyük hədəfimiz qol vurmaqdı. Mərhələ adlamaq şanslarını bərabər hesab edirəm. Əlbəttə, 5:3 hesablı qələbədən məmnunam, amma arxayınlaşa bilmərik".


Baş redaktor:
Bəhruz Quliyev
Baş redaktorun müavinləri:
Valeh Məhərrəmli
Fətulla Həsənov

Ünvanımız: Bakı şəhəri, Üzeyir Hacıbəyov küçəsi, 32.
Şəhadətnamə:№ 022492
http://www.ses-news.az
http://www.sesqazeti.az
E-mail: ses@sia.az
Tel:598-33-90 Faks:493-11-62

Buraxılışa məsul: Mətləb Salahov
Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet "Səs"in komputer mərkəzində yığılır, səhifələnir.
"Azərbaycan" nəşriyyatında çap olunur
Qəzetdə AzərTAc, SİA, APA və AZADİNFORM informasiya agentliklərinin məlumatlarından istifadə olunur.

Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur
Tiraj: 5500